
№ 250-252 ISSN 1027-3875 may-iyun 2008

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Knyaz ASLAN

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Əminə M.Rzaqızı
Fotomüxbir:
Xeyrulla HACƏLİYEV

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Knyaz ASLAN

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Amina M. Rzaqizi
Photoreporter:
Kheyrulla HACALIYEV

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000


The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə



AYDIN XAN:
"NƏSİRƏDDİN TUSİ – HAMLET İSAXANLI:
ELM VƏ ƏDƏBİYYATDAN
YOĞRULMUŞLARIN İKİSİ..." 14




Camal Mustafayev
On the traces of Fazlullah Naimi 44



Bəhlul Abdulla
«KİTABİ-DƏDƏ QORQUD»DA
BURLA XATUN OBRAZI 22

ABİDƏLƏR İKİNCİ
ÖMRÜNÜ YAŞAYIR
57



UŞAQ
DÜNYASI
74

XALQA SƏDAQƏTLƏ XİDMƏT ETMƏK NÜMUNƏSİ

Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 85 illiyini təntənə ilə qeyd etdi. Böyük dövlət xadimi, dünya şöhrətli siyasətçi Heydər Əliyev ictimai-siyasi quruluşdan asılı olmayaraq bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət etmişdir.

Dövlət təhlükəsizliyi orqanlarındakı fəaliyyəti bizə məlum olmasa da, o vaxt çox mötəbər döyüş ordenləri ilə təltif edilməsi və ilk azərbaycanlı olaraq Dövlət Təhlükəsizliyi Komitəsinə sədr təyin olunması nümunəvi işindən və nüfuzundan xəbər verir. Ancaq bu məlumdur ki, məhz Heydər Əliyev dövlət təhlükəsizliyi sistemini otuzuncu illərdən bəri bu orqanlarda kök salmış ermənilərdən təmizləmişdi.

1969-cu ildə Heydər Əliyev Azərbaycanın rəhbəri vəzifəsinə seçiləndə respublikanın iqtisadiyyatı çox ağır vəziyyətdə idi.Bütün müttəfiq sovet respublikaları arasında Azərbaycan həm umumi daxili məhsul istehsalı, həm də inkişaf baxımından ən axırıncı yerdə idi. Ancaq Heydər Əiyevin rəhbərliyi altında həmin illər ərzində görülən işlər 1982-ci ildə ona gətirib çıxardı ki, Azərbaycan SSRİ-də ən qabaqcıl respublika oldu. Azərbaycanda böyük quruculuq, abadlıq işləri aparılmışdı. Məhz o illərdə yaranmış güclü sənaye potensialı bu gün də Azərbaycanın müstəqilliyinə xidmət edir. Azərbaycan sənaye respublikasına çevrilmişdi. Bu gün Azərbaycanın neft - qaz sektoru üçün əvəzsiz olan infrastruktur məhz Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci illərdə yaradılmışdır. Yəni 1969-cu ildən 1982-ci ilə qədər Azərbaycanın keçdiyi iol inkişaf yolu olmuşdur. Həm kənd təsərrüfatında, həm sənaye potensialının möhkəmlənməsində, həm də respublikanın mədəni həyatında böyük nailiyyətlər əldə edilmişdi. Azərbaycanda ictimai proseslər də başqa respublikalardan böyük dərəcədə fərqlənirdi.

1982-ci ldə Heydər Əiyev Sov.İKP MK-nın Siyasi Bürosuna üzv seçiləndən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin ediləndən sonra Sovet İttifaqının iqtisadiyatının bir sira mühüm sahələrinə, elmə, mədəniyyətə, təhsilə cavabdehlik daşısa da, bununla yanaşı Azərbaycanın inkişafı üçün, Azərbaycanda yeni müəssisələrin yaranması üçün, Azərbaycana mərkəzi fondlardan daha artıq sərmayənin gətirilməsi üçün çox çalışırdı. Ancaq 1987-ci ildə o, müxtəlif səbəblər üzündən siyasi hakimiyyətdən uzaqlaşdırıldı və bu, Azərbaycanda vəziyyətin gərginləşməsinə gətirib çıxardı.

Heydər Əiyev hakimiyyətdən gedəndən təxminən iki həftə sonra erməni separatçıları Dağlıq Qarabağın Azərbaycandan ayrilması haqqında xarici mətbuatda məsələ qaldırdılar və geniş fəaliyyətə başladılar. Azərbaycana o zaman rəhbərlik edənlərin səriştəsizliyi üzündən bu fəaliyyətin nə ilə nəticələndiyi məlumdur. Daha sonra Qanlı Yanvar faciəsi baş verdi. Heydər Əiyev doğma xalqına qarşı törədilən bu cinayətə dözməyib yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mərkəzi hakimiyyəti, Qorbaçovu, Kommunist Partiyasını açıq ittiham etdi, haqq səsini ucaltdı. Dünyanın aparıcı kütləvi informasiya vasitələri onun mətbuat konfransındakı sərt bəyanatını hər tərəfə yaydı. Əgər o olmasaydı, qapalı bir dövlət olan Sovet İttifaqı, bəlkə də, o vaxt bunu böyük dərəcədə ört-basdır edə bilərdi.

Bundan sonra Qorbaçov başda olmaqla Sovet İttifaqının rəhbərliyi tərəfindən Heydər Əliyevə göstərilən təzyiqlər şəraitində Moskvada qalmağın qeyri-mümkünlüyü məlum olanda, təcrübəli siyasətçi doğma Azərbaycana qayıdaraq Naxçıvana getdi və 1991-ci ildə xalqın iradəsi ilə Naxçıvan Ali Məclisinin sədri seçildi. O, misli görünməmiş çevikliklə Türkiyə və İranla siyai, iqtisadi, ticarət əlaqələri qurdu və Ermənistan tərəfindən möhkəm mühasirə halqasına alınmış Naxçıvan üçün bu tədbirlər xilasedici rol oynadı. Beləliklə, Heydər Əiyev Naxçıvana hücum təhlükəsini aradan qaldıra bildi. O illərdə ilk dəfə olaraq, Azərbaycanda üçrəngli bayraq məhz Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Məclisinin qərarı ilə onun binasında ucaldıldı.

Heydər Əliyevin siyasi nüfuzu, Azərbaycanda onun rəhbərliyi ilə aparılan böyük quruculuq işləri xalqın ona böyük məhəbbətinin yaranmasına səbəb olmuşdu. Bu münasibət 1993-cü ildə də həlledici olmuşdu. Çünki o illərdə Azərbaycan xalqı böyük fəlakətlərlə üz-üzə qalanda məhz öz liderinə üz tutub, onu yenidən Azərbaycana rəhbərlik etməyə dəvət etdi. Heydər Əiyev isə söylədi: "Mən ömrümün qalan hissəsini də Azərbaycan xalqına bəxş edirəm."

1993-2003-cü illər Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması və möhkəmlənməsi illəri, Azərbaycanın dirçəliş illəri, sabitlik və inkişaf illəri, Azərbaycanın xarici mövqelərinin möhkəmlənməsi illəri, neft müqavilələrinin imzalanması illəri oldu. Bütün istiqamətlərdə Heydər Əiyevin fəaliyyəti Azərbaycanı inkişaf etdirdi və gələcək uğurların əsasını qoydu. Onun siyasi xətti layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyef tərəfindən uğurla davam etdirilir. Azərbaycan bu gün dünyada ən sürətlə inkişaf edən ölkədir.

Heydər Əiyevin anadan olmasının 85 illiyi münasibətilə keçirilən xatirə mərasimində Azərbaycan Prezidenti İlham Əliyef demişdir: "Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq o, bizim ürəyimizdə yaşayır, qəlbimizdə yaşayır, onun əməlləri, ideyaları yaşayır, onun siyasəti yaşayır və əbədi yaşayacaqdır."

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 90 İLLİYİ







Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan tarixinin ən şanlı dövrlərindən birini təşkil edir.

1918-ci il mayın 26-da Zaqafqaziya seymi buraxılandan və onun elan etdiyi Zaqafqaziya Federativ Respublikası süqut edəndən sonra Cənubi Qafqazda üç müstəqil dövlət – Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları yarandı. Sabiq Zaqafqaziya Seymi Azərbaycan fraksiyasının 1918-ci il mayın 27-də Tiflis şəhərində keçirilmiş fövqəladə iclasında Müsavat Partiyası Mərkəzi Komitəsinin sədri Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə Milli Şura (Şurayi-Milli) yaradıldı və mayın 28-də Milli Şura Azərbaycanın İstiqlaliyyəti Haqqında Əqdnamə qəbul etdi.

Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk konstitusiya aktı – İstiqlal Aktının qəbulu ilə Azərbaycan dövlətçiliyi dünyada Xalq Cümhuriyyəti formasında elan olundu.

Bu siyasi və hüquqi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan edilmiş, onun hakimiyyətinin şamil olunduğu ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmışdır. İstiqlal Aktında demokratik dövlətə məxsus atributların – hakimiyyətin xalqa mənsub olması, vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi, silki və cinsi mənsubiyyətindən asılı olmayaraq azad inkişafı üçün şərait yaradılması, ən nəhayət, hakimiyyətin bölünməsi kimi prinsiplərin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğunu bütün bəşəriyyətə nümayiş etdirdi. İstiqlal Aktı Bəyannaməsi Azərbaycan millətinin Kulturnation (millət-mədəniyyət) statusundan tamamilə başqa siyasi-hüquqi və mənəvi-psixoloji statusa – Statenation (millət-dövlət) statusuna qədəm qoyduğunu göstərdi.

İstiqlal Aktının qəbul edildiyi həmin gün – mayın 28-də Milli Şuranın tapşırığı ilə Fətəli xan Xoyski Nazirlər Şurasının sədri vəzifəsini tutmaqla Azərbaycan hökuməti təşkil olundu. 1918-ci il dekabrın 7-də Şərqdə ilk parlament olan Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin – Məclisi Müəssisanın işə başlaması ilə hakimiyyətin təşkili başa çatdı. Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev sədrin birinci müavini seçildi.

Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti tarixinin hər bir səhifəsi xalqımız üçün olduqca əzizdir. Azərbaycan Xalq Cümhuriyyətinin öz dövlətçilik atributlarını qəbul etməsi, dövlət və hərbi quruculuq, iqtisadiyyat və mədəniyyət, təhsil və səhiyyə sahələrində atdığı addımlar xalqımız üçün taleyüklü əhəmiyyət kəsb etmişdir. Cümhuriyyətin böyük uğurlarından biri 1920-ci il yanvarın 11-də Paris sülh konfransında Azərbaycanın müstəqil dövlət kimi tanınması olmuşdur. Bakı Dövlət Universiteti də xalqımıza Azərbaycan Xalq Cümhuriyyətinin yadigarıdır.

1920-ci il aprelin 27-də Sovet Rusiyasının hərbi müdaxiləsi və istilanın iştirakçısı olan Azərbaycan kommunistlərinin ultimatumu ilə Azərbaycan Xalq Cümhuriyyəti devrildi və aprelin 28-də Azərbaycan İctimai Şura Cümhuriyyəti elan olundu. 70 illik bir dövrdən sonra Azərbaycan xalqı yenidən müstəqillik qazandı və Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi elan etdi.

XƏZƏR UNİVERSİTƏSİ XƏBƏRLƏRİ

"ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN NÖVBƏTİ TOPLANTISI



Aprelin 15-də Xəzər Universitəsində növbəti "Elm və sənət məclisi" keçirildi. Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Azərbaycan mədəniyyəti və ədəbiyyatının Türkiyədə təbliğindən söz açaraq, bir çox məsələlərə geniş aydınlıq gətirdi. Məclisin qonağı, Ege Universitəsinin (Türkiyə) professoru Yavuz Akpınar Azərbaycan ədəbiyyatı və mədəniyyətinin Türkiyədə araşdırılması və Azərbaycan Cümhuriyyətinin 90 illiyi ilə bağlı tarixi tədqiqatları barədə məruzə etdi. Məruzə ətrafında müzakirələrdə Azərbaycanın tanınmış alim və yazışıları da iştirak edərək, mülahizələrini bildirdilər.

XƏZƏR UNİVERSİTƏSİNİN QONAĞI

Azərbaycanda səfərdə olan "Azad Avropa" və "Azadlıq" Radioları Korporasiyasının prezidenti Cefri Gedmin aprelin 16-da Xəzər Universitəsində olub. Xəzər universitəsinin rektoru, professor Hamlet İsaxanlı qonağı səmimi salamlayaraq, onu müəllim və tələbə heyətinə təqdim etdi. Dünyada gedən siyasi proseslər və "Azadlıq" radiosunun fəaliyyəti haqqında ətraflı məruzə etdikdən sonra Gedmin ABŞ-da mətbuatın durumu, jurnalistlərin fəaliyyəti ilə bağlı tələbələrin çoxsaylı suallarına, o cümlədən rəhbərlik etdiyi şirkətin jurnalistlərinin peşə fəaliyyəti, jurnalistlərə olan təzyiqlər, diffamasiya ilə bağlı suallarına ətraflı cavab verdi. O, Azərbaycanda mətbuatla bağlı müəyyən problemlərin olduğunu söyləyib: "Amerikada da demokratiya mükəmməl deyil. Biz də bu istiqamətdə mübarizə aparırıq. Ümid edirik ki, Azərbaycanda həyata keçirilən demokratik islahatlar öz bəhrəsini verəcək". Tələbələrin "ABŞ hökuməti Azərbaycan hökumətinin siyasətini dəstəkləsə də, rəhbərlik etdiyiniz radionun əks mövqe tutmasının səbəbi nədir" sualını cavablandıran Cefri Gedmin bildirib ki, o, ABŞ hökumətini təmsil etmir: "ABŞ Azərbaycanda olan enerji resurslarını nəzərə alır. Bizim üçün isə əsas məsələ demokratiyadır".





NORVEÇİN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ




Aprelin 29-da Azərbaycan Dillər Universitetində Norveçin xarici işlər naziri Jonas Gahr Store ilə görüş keçirildi. Görüşdə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı da iştirak edirdi. Nazir rəsmi çıxışında Norveç universitetləri ilə yaxşı əlaqələr qurmuş iki Azərbaycan ali məktəbindən birinin Xəzər Universiəsi olduğunu qeyd etdi.



"BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ" MÖVZUSUNDA KONFRANS

Aprelin 30-da Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında "Biliklərin qiymətləndirilməsi" mövzusunda konfrans keçirildi. Konfransda Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı da çıxış etdi.

FƏNLƏR ÜZRƏ RESPUBLİKA OLİMPİADASI





Mayın 3-4-də Bakı, Sumqayıt, Gəncə, Lənkəran və Şəki şəhərlərində 11-ci sinif şagirdləri arasında riyaziyyat, kimya, fizika fənləri üzrə respublika olimpiadası keçirildi. Olimpiadanın yekunları ilə bağlı nəticələr Xəzər Universitəsinin rəsmi saytında yerləşdirilib.

Mayın 24-də "Xəzər" Universitəsinin "Dünya" konsert salonunda olimpiadanın qaliblərinə diplomların təqdim edilməsinə həsr olunmuş mərasim keçirilmişdir.





NORVEÇ UNİVERSİTETLƏRİ İLƏ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR

Xəzər Universitəsinin İqtisadiyyat və Menecment fakültəsi və Norveçin Bİ Menecment İnstitutu 2005-ci ildən başlayaraq müxtəlif istiqamətlərdə əməkdaşlıq edirlər. Razılaşmaya uyğun olaraq hal-hazıradək fakültənin altı məzunu (Kamran Məcidov, Ələkbər Əkbərov, Xəyalə Eylazova, Aygül İsayeva, Namiq Xəlilov və Elman Feyziyev) Norveç hökumətinin dəstəyi ilə magistratura pilləsində biznesin müxtəlif ixtisasları üzrə təhsili davam etdirmək üçün Norveçə göndərilmiş, təhsili bitirən Kamran Məcidov, Ələkbər Əkbərov və Xəyalə Eylazova isə fakültədə dərs deyirlər.

Əməkdaşlığın digər istiqaməti Enerji Menecment ixtisası üzrə birgə magistr proqramın hazırlanması, tədrisi və məhz bu sahədə elmi araşdırmaların həyata keçirilməsi ilə əlaqədardır. Bu istiqamətdə müəyyən hazırlıq işləri görülmüş, fakültənin müəllimləri Fərid Musayev və Fariz Əhmədov Norveçdə treninqlərdə iştirak etmişlər.

Müzakirələr nəticəsində tərəflər Xəzər Universitəsində enerji menecment sahəsində beynəlxalq seminar keçirmək qərarına gəlmişdilər. Gərgin birgə hazırlıq işlərinin nəticəsi olaraq seminar mayın 7-8-də uğurla keçdi. Seminarda enerji sahəsi ilə əlaqədar təşkilatların 50 nəfərdən çox nümayəndəsi və universitənin tələbələri iştirak edirdilər.

Seminarı giriş sözü ilə Norveçin Azərbaycandakı səfiri Con Ramberq və Xəzər Universitəsinin rektoru professor Hamlet İsaxanlı açdılar.

Seminarda enerji iqtisadiyyatı və siyasəti, neft və qaz biznesi, enerji layihələrinin menecmentinə dair 8 məruzə dinlənilmiş və geniş müzakirələr keçirilmişdir. Məruzələri professor Oysteyn Noreng (Norveç Bİ Menecment İnstitutu), Dr. İnqilab Əhmədov (Xəzər Enerji Araşdırmalar Mərkəzi, Xəzər Universitəsi), Sabit Bağırov (Siyasi və İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri), Eldəniz Mirzəyev və Elman Mikayilov (BP şirkəti), Arzu Hacıyeva (Ernest&Young şirkəti, departament müdiri), Leyla Muradxanlı (Xəzər Universitəsi, departament müdiri) və Fərid Musayev (Xəzər Universitəsi, İqtisadi və Biznes Təhsil və Tədqiqatlar Mərkəzi) təqdim etdilər.



İştirakçıların və qonaqların fikrincə, seminar yüksək səviyyədə keçirilmiş və uğurlu olmuşdur. Qarşılıqlı razılaşmaya uyğun olaraq gələcəkdə də belə seminarların keçirilməsi nəzərdə tutulur.

Seminarda və sonrakı müzakirələrdə əldə edilmiş razılaşmaya uyğun olaraq hal-hazırda müqabil tərəflərin maraqlarına uyğun olan birgə tədqiqatlar planı hazırlanır.

Qeyd etmək lazımdır ki, Xəzər Universitəsinin Norveç universitetləri ilə əməkdaşlığı biznes sahəsi ilə məhdudlaşmır. Hazırda universitənin rəhbərliyi neft mühəndisliyi sahəsində Norveç universitetləri ilə birgə bakalavr, magistr, PhD mütəxəssislərin hazırlığı və birgə tədqiqatların həyata keçirilməsi sahəsində işgüzar əlaqələrin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirir. Ümid edirik ki, yaxın zamanda bu sahədə də maraqlı nəticələr əldə olunacaq.

Məhəmməd Nuriyev,
professor, Xəzər Universitəsi İqtisadiyyat və Menecment fakültəsinin dekanı

NÖVBƏTİ "AÇIQ DƏRS" PROQRAMI

Mayın 7-də İctimai Televiziyanın növbəti "Açıq dərs" proqramında "Xaricdə təhsilin rolu: keçmişdə və bu gün" mövzusunun müzakirəsində Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı da ekspert kimi iştirak etdi.

ELEKTRON MƏKANDA FƏALIYYƏT

Mayın 10-da Xəzər Universitəsində "Elektron məkanda fəaliyyət" məsələsi ilə bağlı rektor Hamlet İsaxanlı bir qrup mütəxəssis, müəllim və inzibatçılarla görüş keçirdi. Bu sahəni gücləndirmək üçün xüsusi qrup yaradıldı və iş planı müzakirə olundu.

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ İLƏ SÖHBƏT

Mayın 10-da İsveçrənin Azərbaycan Respublikasındakı səfiri Alain Guidettinin "Muğam" klubunda İsveçrə Konfederasiyasının prezidenti Paskal Kouçepinin şərəfinətəşkil ediyi kiçik ziyafətdə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı da iştirak etdi. O, prezident Paskal Kouçepini ilə səmimi söhbət etdi, İsveçrə - Azərbaycan əlaqələri, elm və təhsilin inkişafı məsələlərinə dair fikir mübadiləsi apardı.

ELMİ-İNZİBATİ ŞURANIN NÖVBƏTİ İCLASI

Mayın 17-də Xəzər Universitəsinin Elmi-İnzibati Şurasının növbəti iclası keçirildi. Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı iclası açandan sonra universitədə yeni yaradılan departament, mərkəzlər və Web qrup haqqında məlumat verdi. Yeni qurumlar aşağıdakılardır: Şərq və Dini Araşdırmalar departamenti (Elnurə Əzizova), Hüceyrə Biologiyası və Genetik Araşdırmalar Mərkəzi (İsmət Əhmədov), Ətraf Mühit və Ekoloji Araşdırmalar Mərkəzi (Rövşən Abbasov), Xəzər Enerji Tədqiqatlar Mərkəzi (İnqilab Əhmədov), Praktik Tərcümə Mərkəzi (Eldar Şahgəldiyev).

Elmi-İnzibati Şurada mayın 3-4-də Bakı, Sumqayıt, Gəncə, Lənkəran və Şəki şəhərlərində 11-ci sinif şagirdləri arasında riyaziyyat, kimya, fizika fənləri üzrə keçirilmiş Respublika Olimpiadasının nəticələri haqqında da məlumat verildi.

İKİ GÜNLÜK MİLLİ SEMİNAR

Mayın 26-27-də Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Avropa Şurasının dəstəyi ilə "Bolonya prosesinin inkişafının əsas istiqamətləri" mövzusunda iki günlük milli seminar keçirilmişdir. Seminarda Xəzər Universitəsinin İngilis Dili və Ədəbiyyatı Departamentinin müdiri Eldar Şahgəldiyev "Avropada ixtisas dərəcələrinin strukturu" mövzusunda çıxış etmişdir. Çıxış razılıqla qarşılanmışdır.

Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlının "Dördlüklər" şeirlər kitabı "2007-ci ilin poeziya kitabı"nominasiyası üzrə mükafata layiq görüldü



Müsabiqəyə təqdim olunmuş çoxsaylı (300-dən artıq) ədəbi-mədəni və kitab-nəşr layihələrindən 33 ən uğurlu işə müxtəlif nominasiyalarda mükafatlar təqdim olundu. Milli Kulturoioji Mükafat Komissiyasının qərarı ilə "2007-ci ilin poeziya kitabı" nominasiyasında - *şair-tərcüməçi Hamlet İsaxanlının "Dördlüklər" poetik toplusu* (Hamlet Isaxanli. **Quatrians** (in Azeri). – Baku: Khazar University Press, 2007. – 209 p. – ISBN 978-9952-20-042-3) qalib hesab edilmişdir. Xəzər Universitəsinin nəşr etdiyi *"Xəzər İngiliscə-Azərbaycanca böyük lüğət"* kitabı da (Khazar English-Azerbaijani comprehensive Dictionary") mükafata layiq görüldü.

Yeni Yazarlar və Sənətçilər Qurumunun təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyi ilə mart-may aylarını əhatə edən VIII Bakı Kitab Bayramı Milli Kulturoloji Layihə həyata keçirilmişdir.

Mayın 26-da M.F.Axundov adına Milli Kitabxanada VIII Bakı Kitab Bayramı - Milli Kulturoloji Layihənin əsas mərasimi – sərgi, ədəbi-mədəni ictimaiyyətin görüşü və mükafatlandırma mərasimi keçirildi. Xəzər Universitəsi kitabxanası da bu sərgidə fəal iştirak etdi. VIII Bakı Kitab Bayramı Azərbaycan Xalq Cümhuriyyətinin 90, xalq yazıçısı Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuşdu.



RESPUBLIKA GÜNÜ QEYD OLUNDU

Mayın 27-də Xəzər Universitəsində Azərbaycan Demokratik Respublikasının 90 illiyi münasibətilə tədbir keçirildi. Tədbiri giriş sözü ilə açan Siyasət İnstitutunun direktoru Baba Bayramlı ADR-in Azərbaycan tarixindəki rolu və əhəmiyyəti ilə bağlı məsələlərdən danışdı. Tarixçi Elnur Nəsirov "Azərbaycan Demokratik Respublikasının daxili və xarici siyasəti" mövzusunda məruzə etdi. Məruzə ətrafında geniş və maraqlı müzakirələr aparıldı. Tədbirdən sonra Siyasət İnstitutunun üzvu olan tələbələr qruplara bölünərək, əllərində Azərbaycan bayrağındakı rənglərdən ibarət lentlərlə şəhərin müxtəlif yerlərinə yollandılar. Onlar həmin lentləri şəhər sakinlərinə paylayaraq, onları ADR-in 90 illiyi münasibətilə Xəzər Universitəsi adından təbrik etdilər.

Fidan İSAYEVA,
Siyasət İnstitutunun koordinatoru

XƏZƏR UNİVERSİTƏSİ ESTONİYADA



Xəzər Universitəsinin rektoru professor Hamlet İsaxanlının rəhbərlik etdiyi nümayəndə heyəti Avropa Türk və Qafqaz Xalqları Assosiasiyasının (ATQXA) dəvəti ilə mayın 26-dan 31-dək Estoniya Respublikasında olmuşdur. Nümayəndə heyətinin ilk görüşü Estoniya parlamentində spikerin müşaviri Arnu Vedla və parlamentin deputatı həmyerlimiz Eldar Əfəndiyevlə oldu. A.Vedla və E.Əfəndiyev Estoniya parlamentinin quruluşu, tərkibi və fəaliyyəti haqqında Azərbaycandan gələn qonaqlara geniş məlumat verdilər. Azərbaycan-Estoniya mədəni, iqtisadi, təhsil əlaqələrinin genişləndirilməsindən, universitetlərin qarşılıqlı münasibətlərinin yaradılmasından və digər bu kimi məsələlərin bu gün və gələcək üçün aktuallığından danışdılar. Estoniya parlamentinin rəhbərliyi adından professor Hamlet İsaxanlıya və nümayəndə heyətinin üzvlərinə hədiyyələr təqdim edildi.

Mayın 27-də Estoniya Avrouniversitetində "Sivilizasiyaların dialoqu: Şərq-Qərb qloballaşma prosesində" beynəlxalq elmi konfrans keçirildi. Konfransı giriş sözü ilə universitetin rektoru akademik Yuri Martin açdı. Xəzər Universitəsinin rektoru professor Hamlet İsaxanlının "Qloballaşma, innovasiya və müasir dün yada ali təhsil", Rus Xalq Mədəniyyət Universitetinin rektoru professor Naftoli Basselin "Mədəniyyətlərin dialoqu – beynəlxalq münasibətlərin qaydası kimi" mövzularında məruzələri maraqla dinlənildi. Şərq Mədəniyyəti Xalq Universitetinin rektoru professor Yaqub Yaqubov, Sosial Humanitar Universitetinin professoru Yuri Kadak, professor Tomas Alatalu, Audentes Universitetinin şərqşünası Artur Last, Tallin Universitetinin professoru İnna Osipçuk və digərləri çıxış etdilər.

Beynəlxalq elmi konfransdan sonra Estoniya radiosu-4 Xəzər Universitəsinin rektoru professor Hamlet İsaxanlıdan radio üçün müsahibə aldı.

Həmin gün Estoniya Mədəniyyət Nazirliyində Azərbaycandan gələn nümayəndə heyəti ilə görüş keçirildi. Görüşdə Mədəniyyət Nazirliyinin xarici əlaqələr idarəsinin rəisi Anne-Li Reyma Estoniya mədəniyyətindən, incəsənətindən və azsaylı xalqların, o cümlədən azərbaycanlıların Estoniyadakı fəaliyyəti haqqında məlumat verdi. A.Reyma 1993-ci ildə Estoniya parlamentinin azsaylı xalqlar haqqında qəbul etdiyi qanunun əhəmiyyətindən danışdı. Estoniyada bir çox icmaların ol-

duğunu, ən böyük icmanın isə rus icması olduğunu bildirdi. O da vurğulandı ki, icma statusu almaq üçün ölkədə həmin xalqın 3000 nəfərdən artıq olması əsas şərtdir (Estoniyadakı azərbaycanlıların sayı hələ 2000-i keçməmişdir). Görüsdə Estoniya Mədəniyyət Nazirliyinin nümayəndələri Madıs Jarv və Olqa Burmakina iştirak edirdilər.

Mayın 28-də Hamlet İsaxanlının rəhbərlik etdiyi nümayəndə heyəti Tallin Şəhər Təhsil İdarəsində Estoniya Təhsil və Araşdırmalar Nazirliyinin xarici əlaqələr idarəsinin rəhbəri Haridus-ja Teadusla görüşdü. (Estoniya Təhsil və Araşdırmalar Nazirliyi Tartu şəhərində yerləşir.) H.Teadus Estoniya təhsili haqqında geniş məlumat verərək bildirdi ki, Estoniyada 40 özəl orta məktəb olmaqla 600 orta məktəb, 4 dövlət və 6 özəl universitet fəaliyyət göstərir. Estoniyada icbari təhsil 9 il, əsas təhsil isə 12 ildir. Xanım Teadus onu da bildirdi ki, son dövrlər Estoniyada iqtisadiyyat və hüquq ixtisaslarına üstünlük verənlərin sayı artıb. Estoniyadakı universitetlərdə dünyanın bir çox ölkələrindən, əsasən də Finlandiyadan gələnlər təhsil alırlar.

May ayının 28-də Tallin şəhərinin mərkəzində yerləşən Viru mehmanxanasının Bolero-2 zalında Azərbaycan Cümhuriyyətinin yaradılmasının 90 illiyinə və Xəzər Universitəsinin qurucusu və rektoru professor Hamlet İsaxanlının 60 illiyinə həsr edilmiş təntənəli gecə keçirildi. Gecəni giriş sözü ilə Avropa Türk və Qafqaz Xalqları Assosiasıyasının prezidenti professor Yaqub Yaqubov açdı. Estoniyanın və Azərbaycanın əzəmətli dövlət bayraqları altında hər iki ölkənin dövlət himni səsləndirildi. Sonra Azərbaycan Xalq Cümhuriyyətinin 90 illiyinə həsr edilmiş "Azərbaycan" və Hamlet İsaxanlının həyat və yaradıcılığını əks etdirən "Bizim Hamlet" filmləri nümayiş etdirildi.

Yubiley tədbirində Estoniya parlamentinin üzvü Andres Herkel (Azərbaycan dilində), Rus Xalq Mədəniyyət Universitetinin rektoru professor Naftoli Bassel, Estoniya Avrouniversitetinin rektoru, akademik Yuri Martin, Audentes Universitetinin şərqşünası Artur Last, Qafqaz Mədəniyyət Mərkəzinin sədri, Avropa Türk və Qafqaz Xalqları Assosiasiyasının vitse-prezidenti Georgi Dzmanashvili, Estoniya-Amerika Biznes Akademiyasının rektoru professor Mark Levin, Estoniya Sosial Humanitar İnstitunun rektoru professor Lembi Allinq və professor Vladimir Parol, Atatürk Mədəniyyət Mərkəzinin rəhbəri professor Zülfiyyə Nurmanova, "Prosvita" Ukrayna Mədəniyyət Mərkəzinin sədri Oksana Mamutova, Estoniya Rus Maarifçilik və Xeyriyyəçilik Cəmiyyəti idarə heyətinin üzvü Svetlana Zauqarova Azərbaycan Xalq Cümhuriyyətinin 90 illiyini və Xəzər Universitəsinin rektoru professor Hamlet İsaxanlının 60 illiyini ürəkdən təbrik etdilər. Azərbaycana sülh və əminamanlıq, yubilyara cansağlığı və gələcək işlərində böyük uğurlar arzuladılar.

Yubiley mərasimində Estoniya Akademik Rus Teatrının aktyoru Serqey Çerkasov və Artur Last Hamlet İsaxanlının rus və eston dillərinə tərcümə edilmiş şeirlərini oxudular. "Lyubava" vokal qrupu xalq mahnıları ilə hər kəsi riqqətə gətirdi.

Estoniya Avrouniversitetinin rektoru akademik Yuri Martin Xəzər Universitəsinin rektoru professor Hamlet İsaxanlının Avrouniversitetin fəxri doktoru adına layiq görülməsi haqqında diplomu və qiymətli hədiyyəni yubilyara təntənəli şəkildə təqdim etdi.

Mərasimin sonunda professor Hamlet İsaxanlı tədbirin təşkilatçılarına və iştirak edənlərə dərin minnətdarlığını bildirdi.



Professor H.İsaxanlı riyaziyyat sahəsində müxtəlif istiqamətlərdə geniş elmi araşdırmalar aparıb, xüsusilə çoxparametrli spektral nəzəriyyə üzrə mühüm nailiyyətlər əldə edib.

HAMLET İSAXANLININ YARADICILIĞINA HƏSR OLUNMUŞ TƏDBİR

Mayın 22-də Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Xəzər Universitəsinin təsisçisi və rektoru, tanınmış riyaziyyatçı alim, pedaqoq, fizika-riyaziyyat elmləri doktoru, istedadlı şair, professor Hamlet İsaxanlının yaradıcılığına həsr olunmuş tədbir keçirilib.

Elm və mədəniyyət xadimlərinin, pedaqoqların, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirdə professor Camal Mustafayev alimin ömür yolundan, geniş və zəngin elmi, ədəbi yaradıcılığından danışmış, ona yeni nailiyyətlər arzulamışdır.

Tədbirdə bildirilib ki, 1948–ci ildə dünyaya göz açan Hamlet İsaxanlı orta məktəbi qızıl medalla, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) mexanika–riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, 1970-1973-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) aspiranturasında təhsil alıb. 1973-1988-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunda, M.V.Lomonosov adına MDU-da və SSRİ EA-nın V.A.Steklov adına Riyaziyyat İnstitutunda geniş tədqiqatlar aparan alim riyaziyyat elmi sahəsində uğurlu nəticələrə nail olub.

H.İsaxanlı 1973-cü ildə namizədlik, 1983-cü ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Onlarla elmi və bədii əsərin, 200-dən çox məqalənin (əsərlərinin və məqalələrinin xeyli hissəsi müxtəlif dillərdə xarici ölkələrdə nəşr olunub) müəllifi olan alim 40-dan artıq ölkədə beynəlxalq konfrans və simpoziumlarda məruzələr edib.

Professor H.İsaxanlı riyaziyyat sahəsində müxtəlif istiqamətlərdə geniş elmi araşdırmalar aparıb, xüsusilə çoxparametrli spektral nəzəriyyə üzrə mühüm nailiyyətlər əldə edib.

Alim 1990-1991-ci illərdə Bakıda ingilisdilli Xəzər Universitəsini təsis etmiş və həmin vaxtdan bu təhsil müəssisəsinə rəhbərlik edir. O, Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyanın üzvüdür.

Professor Hamlet İsaxanlının ömür və yaradıcılıq yolundan bəhs edən sənədli film göstərilib.

Tədbirdə çıxış edən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə, təhsil nazirinin müavini İradə Hüseynova, xalq şairi Zəlimxan Yaqub və digər natiqlər də professor H.İsaxanlının elm və təhsilimizin, poeziyamızın inkişafındakı xidmətlərindən, əsərlərinin əhəmiyyətindən danışmışlar. Sonra alimin elmi və ədəbi yaradıcılığı ilə bağlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

/ANS PRESS/



YUBİLEYDƏN SONRAKI DÜŞÜNCƏLƏR

Mayın 22-də Bakıda Dövlət Musiqili Komediya Teatrında möhtəşəm poeziya, sənət bayramı keçirildi. Bu ədəbi-mədəni hadisə istedadlı şair, dünya şöhrətli alim, elm-tədris-təlim cəfakeşi, gözəl insan, ən əsası isə sözün çox mənasında duyğusal intellektual – Hamlet İsaxanlının dünyaya ilk baxışının 60 illik tarixçəsi münasibətilə düzənlənmişdi: çıxışlar, yubilyarın həyat və yaradıcılığı barədə orijinal filmin nümayişi, təbriklər, ictimai-mədəni elitanın, siyasətçilərin, tanınmış simaların, yazarların, alimlərin, ən əsası isə sıravi oxucuların sevgi dolu alqışları, insanların baxışlarındakı hərarət...

NƏSİRƏDDİN TUSİ – HAMLET İSAXANLI: ELM VƏ ƏDƏBİYYATDAN YOĞRULMUŞLARIN İKİSİ...

Əsl həqiqətdə, Hamlet İsaxanlı bütün bunlara layiq olduğunu lap çoxdan isbatlayıb və nədənsə bu intellektualın elmi-pedaqoji fəaliyyəti ilə bədii yaradıcılığı barədə düşünəndə ən əvvəl dahi Tusi yadıma düşür.

Müqayisə aparmaq nə qədər qüsurlu sayılsa da, çəkinmədən mülahizə yürütmək istəyirəm: XXI əsrin Tusisidir Hamlet İsaxanlı! Hər iki intellektual milli ziyalı, dünya şöhrətli alim, Haqqa tapınan şair, elm və təhsil xadimidir. Cəmiyyətimiz bu iki şəxsin beynində doğulan modellərdən hələ uzun müddət yararlanacaq. Bu modellər riyaziyyata da aid ola bilər, ədəbiyyata da, elmə də dəxli var, fəlsəfəyə də - ən əsası odur ki, xaosa yox, məhz ilahi harmoniyaya aparan formatalrdır onlar...

Təbriz Akademiyası ilə XəzərUniversitəsi arasındakı oxşar və fərqli cəhətlər təqribən Güney ilə Quzey Azərbaycan arasındakı qədər olar, nə bir az çox, nə də az... Elə Tusi ilə İsaxanlı arasındakı məkan, zaman, dövran, zəmanə arasındakı oxşar və fərqli tərəflər yalnız ətrafdakıların münasibətindən asılıdır... .

Bəzən, yox əksər vaxtlar bizlər bu dünyada yanımızda quş kimi ömür ötən yaxşıları görmürük, o dünyanın arxivindən kimlərdənsə büt düzəldirik. Elə Tusinin dövranında da, İsaxanlının yaşadığı günlərdə də durum bir elə də dəyişməyib...

Dünənki məclisdə Zəlimxan Yaqub qəlbini açdı və Hamlet İsaxanlını **RUH** saydığını dilinə gətirəndə, içimdə bir titrəyiş hiss etdim. Düşündüm, İlahi, heç olmasa,bəzilərimiz ürəyində təpər tapıb Rəbbinkini Rəbbə, Fərdinkini Fərdə verməyin zamanının yetişdiyini anlayır və başqalarının da kor olmuş qəlbinin sevgi gözünü açmağa can atır...

Canlı **RUH:** doğrudan da, bu anlam elə Hamlet İsaxanlının intellektinə, içinə biçilmiş ifadədir. Ani olaraq Hamlet müəllimlə iki saat yarımlıq canlı görüşümüzdəki söhbətdən aldığım əqli zövq və hərarətli enerji yadıma düşdü; düzü, Hamlet müəllimin saytındakı materiallarla, müxtəlif kitablarındakı poetik əsərlər və düşüncələriylə, haqqında yazılmış elmi kitablardakı faktlarla tanışlıqdan sonra bu böyük **İNSAN**ı içimdə öz ruhuma və intellektimə qarışdırsam da, bəzi etik amillərə görə - mən onun rektor olduğu Xəzər Universitəsində mühazirə oxuyuram – bir yaradıcı intellektual olaraq onun ədəbi-mədəni yaradıcılığı barədə ciddi bir material hazırlamağa hələ də ürək etmirdim.

Fəqət hər hadisənin öz anı gəlib çatmalıdır.

Aydın XAN

XƏZƏR UNİVERSİTƏSİNİN REKTORU PROFESSOR HAMLET İSAXANLI ABŞ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDÜ

İyunun 9-da Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı amerikalı təhsil işçilərinin nümayəndə heyəti - Ali Təhsil Akkreditasiya Şurasının prezidenti Judith Eaton, Təhsil və Mədəniyyət İşləri Bürosunun xüsusi assistenti David Plack, Universitet tələbələri yerləşdirmə servislərinin direktoru Linda Tobash və onları müşayiət edən ABŞ-ın Azərbaycandakı səfirliyinin üzvləri - ABŞ səfirliyi rəhbərliyinin nümayəndəsi Donald Lu və İctimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Terry Davidsonla görüşdü. Görüşdə Azərbaycanda gedən təhsil islahatları və Azərbaycan- Amerika təhsil əlaqələri barədə müzakirə aparıldı.

İRANŞÜNASLIQ MƏRKƏZİNİN İCLASI KEÇİRİLMİŞDİR

İyunun 10-da Xəzər Universitəsində İranşünaslıq Mərkəzində fars dilində təhsil alan 80-ə yaxın tələbə arasında keçirilmiş "Fars dilinin qrammatikası" adlı sorğunun nəticələri ilə bağlı görüş keçirildi. Görüşdə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı, İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nasir Həmidi Zare, Mədəniyyət Mərkəzinin sədr müavini Əlirza Behbudi, maliyyə məsələləri üzrə müşavir Ağayi Əmiri və Xəzər Universitəsinin əməkdaşları iştirak etdilər. 3 müəllimə və sorğuda yüksək nəticələr göstərmiş 15 tələbəyə səfirlik tərəfindən hədiyyələr təqdim olundu. İranın "İrna" televiziyası və "Səhər" proqramı görüşdən çəkiliş apardılar.

XƏZƏR UNİVERSİTƏSİNDƏ "AZƏRBAYCAN MƏDƏNİYYƏTİ ELEKTRON MƏKANDA" ADLI NÖVBƏTİ ELM VƏ SƏNƏT MƏCLİSİ KEÇİRİLDİ

İyunun 10-da Xəzər Universitəsində "Azəbraycan mədəniyyəti elektron məkanda" adlı növbəti Elm və sənət məclisi keçirildi. Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı mövzu ilə bağlı öz məlumatlarını və fikirlərini iştirakçılarla bölüşdükdən sonra sözü Bakı Musiqi Akademiyasının professoru, sənətşünaslıq doktoru Tariyel Məmmədova verdi. Məruzəçi "Azərbaycan musiqisi elektron məkanda" adlı mövzunun geniş şərhini verdi və Azərbaycan musiqisi haqqında veb-saytı hərtərəfli təqdim etdi. Daha sonra Aydın Xan "İnternetdə ədəbiyyat" mövzusunda məruzə etdi və çağdaş Azərbaycan ədəbiyyatının yayılma texnologiyaları, ənənəvi, virtual elektron formada yayılan ədəbiyyatlarımız, o cümlədən Azərbaycan kulturoloji - ədəbi internet məkanlarının veb-adresləri haqqında geniş müzakirə aparıldı.



"Azərsun Holding"lə əməkdaşlıq

İyunun 11-də Hamlet İsaxanlı "Azersun Holding" şirkətinin İnsan resursları departamentinin işə qəbul üzrə meneceri Namiq Məmmədovu qəbul etdi. Görüşdə qarşılıqlı əməkdaşlıq barədə müzakirə aparıldı.

ABŞ-ın İNDİANA ŞTATINDA AZƏRBAYCANŞÜNASLIQ MƏRKƏZİ AÇILACAQ

İyunun 12-də Hamlet İsaxanlı İndiana Universiteti Mərkəzi Avrasiya Araşdırmalar Mərkəzinin direktoru, professor William Fiermanı qəbul etdi. Görüşdə İndiana Universitetində Azərbaycanşünaslıq mərkəzinin yaradılması problemləri müzakirə olundu.

MƏSLƏHƏT ŞURASININ NEFT ŞİRKƏTLƏRİ İLƏ BİRGƏ İCLASI

İyunun 17-də Memarlıq, Mühəndislik və Tətbiqi Elmlər fakültəsinin Məsləhət Şurasının iclası oldu. İclas BP Neft Şirkətinin binasında keçirildi. İclasda BP, Statoil şirkətlərinin nümayəndələri ilə yanaşı Xəzər Universitəsindən rektor, professor Hamlet İsaxanlı, prorektor Məhəmməd Nuriyev, Memarlıq, Mühəndislik və Tətbiqi Elmlər fakültəsinin dekanı Rafiq Əhmədov və Neft Mühəndisliyi Departamentinin müdiri Arif Məmmədzadə iştirak edirdilər. İclasda neft mühəndisliyi ixtisası üzrə əsas laboratoriyaların: Neft mühəndisliyi (Petroleum Engineering), Hidravlika (Fluid Mechanics) və Termodinamika (Thermodynamics) laboratoriyalarının müasir avadanlıqla təchiz olunması məsələsi müzakirə edildi və bununla əlaqədar Xəzər Universitəsinin təklifləri təqdim olundu.

AZƏRBAYCAN DİPLOMATİYA AKADEMİYASINDA GÖRÜŞ

İyunun 20-də Azərbaycan Diplomatiya Akademiyasında Təhsil və Mədəniyyət Məsələləri üzrə Dövlət Departamentinin assistenti Goli Ameri ilə görüş oldu. Görüşdə Xəzər Universitəsinin rektoru Hamlet İsaxanlı da iştirak etdi və müzakirələrə qatıldı.

MÜTƏXƏSSİSLƏRLƏ İLKİN MÜZAKİRƏ

İyunun 21-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı "İdarəetmə və maliyyə siyasətinin təkmilləşdirilməsi" məsələsi ilə əlaqədar olaraq universitə daxilində bir qrup mütəxəssislə ilkin müzakirələr keçirdi. Universitə daxilində idarəetmə və maliyyə sisteminin təkmilləşdirilməsi məqsədilə bir sıra təkliflər irəli sürüldü. Bu məsələ ilə əlaqədar olaraq layihə hazırlanması məqsədilə işçi heyətinə tapşırıqlar verildi.

Layihənin, bu sahədə olan mütərəqqi və işlək təcrübələrə əsaslanmaqla, yerli əmək qanunvericiliyini ehtiva etməsi də nəzərdə tutulur

İDARƏETMƏ VƏ MALİYYƏ SİYASƏTİNDƏ İSLAHAT

İyunun 24-də Xəzər Universitəsində idarəetmə və maliyyə siyasəti üzrə təkmilləşdirmə işlərinin aparılması üçün rektor Hamlet İsaxanlının yanında müzakirə keçirildi. Cari ilin oktyabr ayından başlayaraq yeni vəzifə səlahiyyətlərinin, vəzifələr üzrə bölmə və kateqoriyaların müəyyən edilməsi, maliyyələşdirmə planının işlənməsi üçün xüsusi komissiya yaradıldı.

TÜRK İŞ ADAMLARI İLƏ ƏLAQƏLƏR GENİŞLƏNƏCƏK

İyunun 25-də Xəzər Universitəsinin qurucusu və rektoru, professor Hamlet İsaxanlı Azərbaycanda fəaliyyət göstərən Türk Sənayeçi və İş Adamları Beynəlxalq Cəmiyyətini ziyarət etdi.

TÜSİAB Yönətim Kurulu Başkanı Yavuz Keleş Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlıya ziyarətinə görə təşəkkürlərini bildirdi. Yavuz Keleş Xəzər Universitəsinin rektoruna TÜSİAB haqqında, türkiyəli iş adamlarının Azərbaycandakı fəaliyyətindən, bundan sonra görəcəyi işlərdən danışdı.

Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı səmimi qarşılanmasına görə TÜSİAB-ın başkanına təşəkkür etdi. Hamlet İsaxanlı universitənin quruluş tarixi, ixtisasları, dünyanın müxtəlif universitetləri ilə olan əlaqələrindən geniş məlumat verdi. Qərara alındı ki, bundan sonra Türk iş adamları ilə Xəzər Universitəsi arasında geniş əlaqələr yaradılsın.

KOMİSSİYADA MÜZAKİRƏ

İyunun 27-də Azərbaycan Prezidenti yanında Təhsil Komissiyasında "Azərbaycanda xarici dillərin tədrisi siyasəti" mövzusunda müzakirə keçirildi. Müzakirədə Hamlet İsaxanlı da çıxış etdi.

Embassy of the United States of America

Office of Public Affairs

Baku, Azerbaijan

Georgian Institute of Public Affairs

83, Azadlıq Prospekti
AZ1007 Bakı, Azerbaycan
Email: HuseynguliyevMM@state.gov

Phone: +(99412) 498 03 35
Fax: +(99412) 498 93 12
URL: http://baku.usembassy.gov/

APPLICATIONS FOR MASTER'S DEGREE PROGRAM

The Khazar University, the Georgian Institute of Public Affairs (GIPA) and the United States Embassy in Baku are ollecting applications for the master's degree program in journalism and media management by the Caucasus School of Journalism and Media Management. Theprogram will accept five Azerbaijani students, who will study in Baku and Tbilisi in academic years 2008-10. Journalism will be taught by instructors from the United States, European Union, Georgia and Azerbaijan. Faculty and curriculum for the School will be provided in cooperation with the International Center for Journalists, a Washington-based journalistic association, and Louisiana State University Manship School of Communication. The program is funded by the U.S. Department of State, with supplementary funding from the Open Society Institute.

The overall goal of the program is to strengthen the media in the emerging democratic societies of the Caucasus.

Every year, the program accepts 25 students in a region-wide competition from among professional journalists and university graduates in a variety of other disciplines. The curriculum will be based on a hands-on, experiential approach to learning the latest techniques of fact-based, professional reporting and writing in both print and broadcast media.There will also be an emphasis on management techniques and key knowledge fields, such as economics and the judiciary. Students will have access to computer, audio and video equipment, the Internet, and a journalism library. The program will produce a student newspaper, *Brosse Street Journal*, in print and electronic versions and air reports to Radio GIPA FM.

Language of instruction is English and Azerbaijani.

The program will be offered in four semesters from September 2008 to May 2010. 1st, 3rd and 4th semesters of the program will be held in Baku, in cooperation with the Khazar University and other media organizations. All students will study in Georgia for 11 months in 2009 (January to December) and return there for the defense of a thesis/ final project in May 2010.

Tuition is required. U.S. Embassy in Baku will provide partial tuition support and financial assistance for the duration of studies in Georgia upon well substantiated request.

Entrance procedures are: English language testing (TOEFL), essay writing (in Azerbaijani) and an interview (in English-language) with an Azerbaijani-American admissions committee in September 2008 in Baku. Deadline for application is August 31, 2008.

For more information and for submitting applications, contact:

Ilgar Khudiyev, program representative, at ilgar_xudiyev@yahoo.com or 050 319-66-80 (cell);

or,

Caucasus School of Journalism and Media Management at Georgian Institute of Public Affairs

Address: 2 Brosse Street, Tbilisi, Georgia

Tel/fax: 99532 93-14-66, cell: 99599 50-24-46

E-mail: jschool@gipa.ge web: www.gipa.ge .

You can also download application forms from the GIPA website.

http://www.gipa.ge/data/pdf/csjmm.pdf

What is what:

The Georgian Institute of Public Affairs, established in 1994, is a non-governmental, non-profit educational institution, raising a cadre of highly trained public servants and journalists to support democratic and market reforms in Caucasus.

Caucasus School of Journalism and Media Management (CSJMM) was established in 2001 to support the development of independent media in the Caucasus by means of educational and training programs in journalism, communication and media management. The school's philosophy is that journalists -- well grounded in skills to report fairly and accurately -- will raise the level of journalism where they practice, and will serve the public by providing truthful information and upholding the highest ethical standards of the profession.

Since its opening in January 2002, CSJMM's English-language, regional program graduated 107 students with master's degrees in journalism and media management. In Azerbaijan, CSJMM has graduates, who hold leading positions in the professional media. Overall employment rate is 87%. The graduates today are well-established journalists committed to the principles of fairness, independence, honesty and accuracy in their work for newspapers, television and radio. The biggest employers of Azerbaijani graduates are: ANS TV and ANS Press, Caspian Business News, Radio Free Europe/ Radio Liberty's Azerbaijani and Russian Services.

Embassy of the United States of America

Office of Public Affairs

Baku, Azerbaijan

Georgian Institute of Public Affairs

83, Azadlıq Prospekti
AZ1007 Bakı, Azerbaycan
Email: HuseynguliyevMM@state.gov

Phone: +(99412) 498 03 35
Fax: +(99412) 498 93 12
URL: http://baku.usembassy.gov/

MAGİSTR PROQRAMINA TƏLƏBƏ QƏBULU

Xəzər Universitəsi, Gürcüstanın İctimai İşlər İnstitutu ABŞ-ın Bakıdakı səfirliyi ilə birgə Qafqaz Jurnalistika və Media İdarəçiliyi Məktəbinin jurnalistika və media idarəçiliyi üzrə magistr proqramına tələbə qəbulu aparır. Azərbaycandan seçiləcək beş nəfər tələbə 2008-10-cı tədris ilində Bakıda və Tbilisi şəhərində təhsil alacaqdır. Jurnalistika üzrə dərslər ABŞ, Avropa Birliyi, Gürcüstan və Azərbaycandan olan müəllimlər tərəfindən aparılacaq. Adı çəkilən məktəbin müəllim heyəti və tədris planı mərkəzi Vaşinqton şəhərində yerləşən Jurnalistlər üçün Beynəlxalq Mərkəz və Luiziana Universitetinin Manşip məktəbi ilə birgə hazırlanıb. Bu proqram Açıq Cəmiyyət İnstitutunun əlavə yardımı ilə ABŞ-ın dövlət departamenti tərəfindən maliyyələşdirilir.

Ümumilikdə proqramın məqsədi Qafqazda formalaşmaqda olan demokratik cəmiyyətdə medianın gücləndirilməsidir.

Hər il region ölkələrində peşəkar jurnalistlər və digər ixtisaslar üzrə ali təhsili olanlar arasında keçirilən müsabiqə yolu ilə 25 tələbə bu proqram üzrə təhsil almaq üçün seçilir. Həm çap, həm də tele-radio yayımı mediası nümayəndələri üçün nəzərdə tutulan tədris planı praktiki yanaşma və toplanmış təcrübə prinsipləri üzərində qurulub və faktlarla əsaslanan peşəkar xəbər çatdirilmasını nəzərdə tutur. Burada həmçinin idarəçilik üsullarına, iqtisadiyyat və hüquq fənlərinin tədrisinə də diqqət ayrılacaq. Tələbələrin kompüter, radio və video avadanlıqlardan, internet və zəngin kitabxanadan istifadə etmək imkanları olacaq. Proqram çərçivəsində tələbələr Brosse Street Journal adlanan jurnalın həm çap, həm də internet versiyasını buraxacaq və GİPA FM radiosu vasitəsilə xəbər proqramlarını yayımlayacaqlar.

Tədris ingilis və azərbaycan dillərində aparılır.

Proqram 2008-ci ilin sentyabrından 2010-cu ilin may ayınadək olmaqla dörd semestri əhatə edəcək. I və IV semestrlər Bakıda əməkdaşlığa cəlb olunan Xəzər Universitəsində keçiriləcək. Tələbələr 2009-cu ilin 11 ayını (yanvar -dekabr) Gürcüstanda təhsillərini davam etdirəcəklər. 2010-cu ilin may ayında onlar diplom işlərini müdafiə etmək üçün yenidən məktəbə qayıdacaqlar.

ABŞ-ın Bakıdakı səfirliyi tələbələrin Gürcüstanda olan zaman tədris haqlarının bir qismini maliyyələşdirəcək.

Qəbul üçün prosedur: ingilis dilindən test (TOEFL), inşa (Azərbaycan dilində) və bu ilin sentryabrında Azərbaycan-Amerika qəbul komissiyası üzvlərinin keçirəcəyi müsahibə. Sənədlərin qəbulu üçün son müddət 2008-ci il avqustun 31-dir.

Əlavə məlumat və sənədlərin təhvili üçün əlaqə saxlayın: İlqar Xudiyev, proqramın yerli təmsilçisi, E-mail: ilgar_xudiyev@yahoo.com, Tel: 050 319 66 80 (cell), 437 15 91 (iş).

Ərizə formasını bu saytdan yükləyə bilərsiniz:
http://www.gipa.ge/data/pdf/csjmm.pdf

Gürcüstanın İctimai İşlər İnstitunun nəzdnində Qafqaz Jurnalistika və Media İdarəçiliyi Məktəbi, ünvan: Brosse küç. 2, Tbilisi, Gürcüstan, E-mail: jschool@gipa.ge web: www.gipa.ge

Əlavə məlumat:

Əsası 1994-cü ildə qoyulan Gürcüstan İctimai İşlər İnstitutu özəl tədris ocağı olmaqla Qafqazda demokratik və bazar islahatlarına dəstək olmaq üçün yüksək ixtisaslı ictimai qulluqçular və jurnalistlər buraxan institutdur.

Qafqaz Jurnalistika və Media İdarəçiliyi məktəbi 2001-ci ildə jurnalistika və media idarəçilyi sahəsi üzrə tədris və təlim proqramları vasitəsilə Qafqazda müstəqil medianın inkişafını dəstəkləmək məqsədilə yaradılıb. Məktəbin fəlsəfəsinə əsasən, dəqiq və qərəzsiz xəbərçilik ənənəsində təlim görmüş jurnalistlər işlədikləri yerdə jurnalistikanın səviyyəsini qaldırır, dəqiq məlumat verməklə və peşə standartlarını yüksəkdə tutmaqla cəmiyyətə xidmət göstərirlər.

Məktəbin açıldığı vaxtdan bəri 107 məzun ingilis dilli regional proqramı bititrərək, jurnalistika və media idarəçiliyi üzrə magistr dərəcəsinə yiyələnib. Məktəbin Azərbaycandan olan məzunları yerli media sahəsində lider vəzifələrdə çalışmaqdadırlar. Onların 87%-i hazırda müxtəlif sahələrdə çalışırlar. Bizim məzunlar hazırda işlədikləri televiziya, radio və qəzetlərdə dəqiq, qərəzsiz, müstəqillik kimi prinsiplərə söykənən tanınmış jurnalistlərdir. Məzunlarımızın ən çox cəmləşdiyi media qurumları ANS TV, ANS Press, CBN, Azadlıq/Azad Avropa radiosunun rus və azərbaycan xidmətləridir.

Xəzər Universitəsində Veb qrupu yaradıldı

Xəzər Universtəsində Veb Qrupu (VQ) və qrupun Veb Şurası (VŞ) yaradılmış və əsasnaməsi təsdiq edilmişdir. Əsasnamədə göstərilir ki, Veb qrupunun yaradılmasından məqsəd artan informasiya mübadiləsi şəraitində universitənin Veb səhifəsində müntəzəm olaraq lazımi dəyişikliklərin və yeniliklərin edilməsidir ki, bunun da nəticəsində universitə və məzunlar, tələbə qrupu və assosiasiyaları arasında əlaqələrin inkişafı, universitə daxilində inzibati və idarəedici qrupların məlumatlandırılması, universitənin xarici aləmlə əlaqələrinin yaxşılaşdırılması və eləcə də keçmiş məzunlarla əlaqələrin daha da təkmilləşdirilməsi təmin olunacaqdır.

Veb qrupu 20 nəfərdən, Veb Şurası 7 nəfərdən ibarət təsdiq olunmuşdur. VQ üzvlərinin öhdəlikləri müəyyənləşdirilmişdir: universitənin daxili və ya xarici həyatı ilə əlaqəli məlumatları toplamaq; universitənin Veb səhifəsində yerləşdiriləcək materialları tələb olunan formatda işləmək və Veb saytı üçün Veb şurasına təqdim etmək; məlumatın xüsusiyyətindən asılı olaraq, cəld və asan yolla hədəflərə çatmaq üçün universitənin Media Departamentindən, "Xəzər Xəbər" Redaksiya Şurasından və digər qanuni mənbələrdən lazımi audio, video, foto, vizual və s. kimi yardımçı materialları əldə etmək; topladıqları materialları VQ Şurasına vaxtında ötürməyə cavabdeh olmaq; işin məqsədindən asılı olaraq informasiyanın əsasən ingilis, rus və Azərbaycan dillərində olmasını təmin etmək.

VŞ-nin öhdəliklərinə isə aşağıdakılar daxildir: universitə daxilində Veb qrupunun fəaliyyətini əlaqələndirmək; universitə rəhbərliyinə Veb səhifədə yerləşdirilmiş materiallara dair vaxtında və müntəzəm olaraq məruzə etmək; universitə rəhbərliyinə Veb səhifənin yenilənməsi üçün vacib olan yeni başlıq və rubrikalar təklif etmək; İT Qrupuna universitənin həyatında önəmli yer tutan yeni məlumatlar, rubrikalar və başlıqlar təklif etmək (məsələn: "Hadisələr səhifəsi", "Tədqiqat Xəbərləri", "Tələbə Assosiasiyası Xəbərləri", "Tələbə və İşçi Heyətinin mübadiləsi" və s.); universitə ilə bağlı müxtəlif tədbir və hadisələrin nəticələrini müqayisə etmək və informasiyanı dərindən araşdırıb onun daha səmərəli şəkildə əks olunmasını təmin etmək.

Fakültələr, departamentlər universitənin gündəlik həyatını işıqlandıran məlumatı toplamalı və universitənin Veb səhifəsində yerləşdirmək üçün Veb Şurasnın yardımı ilə müntəzəm olaraq İT qrupuna göndərməlidirlər.

"KITABİ-DƏDƏ QORQUD" DASTANI ESTONİYADA NƏŞR OLUNMUŞDUR

AzərTAc Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna istinadla xəbər verir ki, "Kitabi-Dədə Qorqud" dastanı Estoniyanın paytaxtı Tallin şəhərində nəfis tərtibatda nəşr edilmişdir.

Qədim abidəni eston dilinə Anneli Pekkonen və Vidadi Məmmədov çevirmişlər. Kitaba Azərbaycan rəssamı Fəxrəddin Seyfəddinoğlunun 6 miniatürü daxil edilmişdir.

Yeni nəşrə ön sözü Andres Herkel yazmışdır.

AZƏRBAYCANDA XÜSUSİ İDMAN KANALI AÇILACAQ

Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının növbəti iclasında ölkə ərazisində sahə xarakterli kanalların - idman, mədəniyyət, təhsil, uşaq və gənclərlə bağlı televiziyaların açılması məsələsi müzakirə olunmuşdur.

Şura son dövrlərdə idman sahəsində Azərbaycanın uğurlarını, bu sahəyə dövlət dəstəyini, bölgələrdə olimpiya-idman komplekslərinin tikilməsini, ölkəmizin olimpiya hərəkatında fəal iştirakını, eləcə də Bakı şəhərinin 2016-cı ildə keçiriləcək Olimpiya Oyunlarında namizəd şəhər kimi qeydə alınmasını və digər faktları əsas götürərək, idman kanalının açılması üçün müsabiqə elan etmişdir.

XƏZƏR UNİVERSİTƏSİNİN MAHNI VƏ RƏQS ANSAMBLI DÜNYA ARENASINDA



Xəzər Universitəsinin Mahnı və Rəqs Ansamblı mayın 4-dən 10-dək 22 nəfərlik qrupla Türkiyənin Antalya şəhərində 11-ci Uluslararası Akdeniz Genclik Şenligi festivalında iştirak etmişdir. Orada ansamblı Akdeniz Universitəsinin azərbaycanlı tələbələri qarşılamışlar.

Ansamblın üzvləri Akdeniz Universitəsinin rektoru Mehmet Akaydınla görüşmüşdür. Görüş zamanı Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlının salamları və hədiyyələri rektora çatdırılmışdır.

Antalyanın görməli yerləri ilə tanış olan ansambl üzvləri Aspendosa səfər etmişdir. Antalya səfəri müddətində festivalda iştirak edən digər qonaqlarla tanışlıqlar zamanı onlara Azərbaycan haqqında geniş məlumat verilmişdir.

ТУРЦИЯ НАС РАДОСТНО ВСТРЕЧАЛА...






Мне выпала честь поведать вам о нашем чудесном визите в Анталию. Мы отправились на 11-ый фестиваль «AKDENIZ GENCLIK ŞENLİGİ». Турция нас радостно встречала, сразу же одарив безоблачной погодой и хорошим настроением. Наши выступления, проведённые на открытых площадках местная публика и зарубежные гости приветствовали долгими апплодисментами,что конечно же, грело душу. Вся неделя была посвещана культурной программе, эксукрсиям по историческим местам и знакомству с делегациями разных стран мира: Украина, Нидерланды, Сербия, Словения, Греция, Италия, Испания, Франция, Хорватия, Босния и Герцеговина и команды из 18 университетов Турции. Нам удалось посетить Aspendos (сохранившийся колизей), где мы были поражены красотой и величественностью застывшей в современном мире частичкой истории, увидеть водопад

в Анталии, посетить развлекательный и культурный центр Minicity, налюбовавшись миниатюрами избранных архитектурных шедевров от античных веков до ашых дней и даже выйти в открытое море на судне. Природа очаровывала и таила в себе какие-то загадки, что даже трудно было оторвать свой взляд от такой красоты.

Атмосфера кругом была поистине дрежеской и гостеприимной.На общих встречах люди разных национальностей и возрастов, говорящие на разных языках, без всяких слов понимали друг друга. Взявшись за руки все вместе танцевали яллы и напевали знакомые мелодии. В последний прощальный ужин все обменивались сувенирами и подарками с родины.

Но, фестиваль закончился, наша восточная сказка подошла к концу и мы возвращались радостные и уставшие, с надеждой на новые встречи и знакомства в следующем году, забирая с собой на родину море незабываемых впечатлений...

Ольга АЛЕКПЕРОВА,
студентка факультета гуманитарных и социальных наук











Araşdırma



Bəhlul Abdulla

Nəinki qorqudşünaslar, hətta diqqətli oxucular da etiraz etməzlər ki, «Kitabi-Dədə Qorqud»dakı (KDQ yazacağıq) xanımlardan söz düşəndə ilk yada düşən Bayındır xanın qızı, Salur Qazanın halalı (boylarda ərlər arvadlarına «halal» deyirlər) boyu uzun Burla xatun olur. Abidənin beş boyunda (2, 3, 4, 11, 12) bu xanım xatırlanır. Amma bu xatırlanma beş boyun hamısında eyni ölçüdə deyil. Misal üçün, on ikinci boyda Burla xatunla bağlı cəmi bir cümlə var. O da belə: «Qaçan Qazan evin yağmalatsa, halalının əlin alar, dışra çıqardı...» (5,109). Vəssəlam. Heç on birinci boyda da bu xanımdan əməlli-başlı söz getmir. Boyun yalnız bir epizodunda onunla tanış olmaq imkanı tapırıq.

«KİTABİ-DƏDƏ QORQUD»DA BURLA XATUN OBRAZI

Burada bildirilir ki, Salur Qazan ovda yatdığı zaman kafirlər onu qəfildən yaxalayıb əsir aparırlar. Guya hələ körpə olan oğlu Uruz böyüyəndə də məsələdən xəbər tutmur. Bunu ondan gizli saxlayırlar. Babası Bayındırı ona atası kimi tanıdırlar. Bir təsadüf nəticəsində həqiqəti öyrənən Uruz evə gəlir. Epizodu yazıya gətiririk. Hiddətlənmiş Uruz qəzəbli-qəzəbli:

Mərə ana, mən xan oğlu degilmişəm,
Xan Qazan oğlu imişəm.
Mərə qavat qızı, munı mana neçün diməzdin?
Ana haqqı Tanrı haqqı degilmişsə,
Qara polad uz qılıncum dartaydım.
Ğafillicə görklü başın kəsəydim,
Alca qanın yer yüzünə dökəydim, - dedi.

Anası ağladı, aydır: «Oğul, baban sağdır, amma söyləməyə qorxurdum, kafirə varasan, kəndözüni urasan həlak olasan. Anunçun sana diməzdim, canım oğul» (5,106).

Burada Uruzun haqqı Tanrı haqqı bilinən anasına dediyi ağır sözlərin səbəbi bəllidir. Bu sözləri ona dedizdirən içdən doğan hiddətdir. Biz buna ötücü hal kimi baxırıq. Amma boyun çox mühüm mətləbləri içinə alan süjetindəki bu epizoddan Burla xatunun xarakterini səciyyələndirən iki mühüm motiv vardır. Birincisi, dustaqlıqda saxlanılan ər dərdi, ər həsrəti ilə gizli-gizli qovrulan, göz yaşı axıdan xanım. İkincisi, hər bir ana kimi, övlad sevgisi, övladının təhlükə ilə üzləşə biləcəyindən çəkinən, hüşənən, narahatlıq keçirən ana.

Elə üçüncü boyda da Burla xatundan geniş danışılmır. Bununla belə, burada da vacib mətləblərlə qarşılaşırıq. Məsələ belədir. On altı il Bayburq hasarında dustaq saxlanılan Bamsı Beyrək kafir bəyinin qızının yardımı ilə əsirlikdən xilas olub Oğuza dönür. Bu o vaxtdır ki, Baybican bəyin qızı Banıçiçək nişanlısı Beyrəyin yalandan ölüm xəbərini

gətirən Yalançı oğlu Yalancuğa ərə verilir. Toy düyünü qurulub və bu münasibətlə təşkil olunmuş oxatma mərasimində bəlqə-nişan qoyulmuş üzüyə ox atılır. Bamsı Beyrək də gəlib yarışa qoşulur və üzüyü vurur. Bu şücaətinə görə, Salur Qazan hələ tanımadıqları, dəli ozan bildikləri Beyrəyə bir günlük bəyliyini verməklə istədiyi yerə getməsinə razı olur. O, xanımlar yığışan odaya gəlib qapının ağzında oturur. Boyda oxuyuruq: «Bunu gördü Qazan bəgin xatını Boyu uzun Burla qaqıdı, aydır: «Mərə, qavat oğlu dəlü qavat, sənə düşərmi bitəllüf mənim üzərimə gələsən», - dedi. Beyrək aydır: «Xanım, Qazan bəgdən mana buyruq oldu. Mana kimsə dolaşmaz», - dedi. Burla xatun aydır: «Çünkim Qazan bəgdən buyruq olubdur, qon, otursun!» - dedi. Yenə döndi, Beyrəyə aydır: «Mərə dəlü ozan, ya məqsudun nədir?» Aydır: «Xanım, məqsudum odur ki, ərə varan qız qalqa oynaya, mən qopuz çalam» (5, 63).

Bu bitən söhbətlə Burla xatunun da boydakı fəaliyyəti bitir. Bir daha ona tuş gəlmirik. Amma bu epizoddan görək bizə nə bəlli oldu? Birincisi, o bəlli oldu ki, toy və elə bəlkə digər mərasimlərdə də Oğuz cəmiyyətindən qadınların toplaşdığı məclisə kişilərin getməsi yasaq imiş (Bakı kəndlərində indinin özündə də bu adət yaşamaqdadır). Bamsı Beyrək də ona görə qadın toy məclisinə gedə bilir ki, istədiyini etməyə Salur Qazandan bir günlük bəylik almışdır. İkincisi, Burla xatun belə-belə məclislərin böyüyü sayılır. O olan yerə kimsə icazəsiz gedə bilməz və biz bunu Beyrəklə söhbətindən də açıq olaraq gördük.

Burla xatunun adı elə Burla xatundur. Mətnlərdə, araşdırmalarda səhv olaraq həmişə, hər yerdə böyük hərflə yazılan «Boyu uzun Burla xatun»dakı «Boyu uzun» ad deyil. «Burla xatun» adının təyin əlaməti olmaqla «uzunboylu» anlamındadır və məhz elə uzun boyluluğu ilə çevrəsindəkilərdən seçilən samur cübbə geyimli bu xanımın xarici görünüşü boylarda belə təqdim edilir: ağ üzlü, qara qıyma gözlü, al yanaqlı, incə belli.

O, uşaqlıq, yetkinlik çağlarını da Qazan xanla birgə keçirmişdir. Deyəsən, elə bu vaxtdan da bir-birlərini sevmişlər. Burla xatunun bildirdiyinə görə, onun ata-anası da bu sevgiyə razı imişlər. Onun sözlərinə diqqət edək:

Xan babamın göygüsi,
Qadın anamın sevgisi,
Atam-anam verdigi,
Göz açuban gördügim,
Könül verib sevdügim. (5,69).

KDQ-da Burla xatunla ilk tanışlığımız isə onun kafirlər tərəfindən əsir aparılması ilə başlayır. Bu, belə olur. Salur Qazanın Oğuz bəyləri ilə birlikdə ovda olmasından istifadə edən kafir Şöklü Məlik yeddi minlik orduyla onun yurdunu talan edir. Tövlə-tövlə şahbaz atlarını, qatar-qatar dəvələrini, ağır xəzinəsini, bol ağçasını yığıb yığışdırırlar. Üstəlik, qırx incə belli bəy qızını, Salur Qazanın qoca anasını, üç yüz igidlə oğlu Uruzu, nəhayət, xanımı Burla xatunu əsir aparırlar.

Söhbətimizi bu istiqamətdə davam etdirməzdən öncə, bir məsələyə aydınlıq gətirmək istəyirik. Dəqiq bilirik ki, hadisə, əhvalat, ayrı-ayrı obrazlar, hətta boyların sıra düzümü ilə bağlı KDQ-da uyğunsuzluqlar qədərincədir. Bir vaxt bu barədə ötəri də olsa, danışmışıq (1, 208-217). Odur ki, indi yenidən həmin məsələyə qayıdıb yenidən təfsilat açmaq niyyətimiz yoxdur. Yalnız bircə bunu demək istəyirik ki, Burla xatun barədə söhbətə əslində dördüncü boydan başlamaq münasibdir. Bircə faktı deyək.

İkinci boyda Salur Qazan ova çıxmağa hazırlaşarkən dayısı Aruz Qoca ondan soruşur: «Ağam Qazan, sası dinlü Gürcüstan ağzında oturarsan ordun (yurdun – B.A.) üstünə kimi qorsan? Qazan aydır: üç yüz yigidlən oğlum Uruz evim üstünə dursun!» (5, 46).

Göründüyü kimi, bu ikinci boyda Uruz artıq bahadır bir igiddir. Yurdu qorumaq böyüklüyü ona həvalə edilir. Bu boyda Uruzun məğrur sınmazlığını da görəcəyik. Amma abidənin

dördüncü boyunda bəlli olur ki, on altı yaşı olmasına baxmayaraq, o, hələ indiyədək nəinki yay çəkməyi, ox atmağı, düşmən başı kəsməyi, qan tökməyi bacarmır, heç ov da ovlaya bilmir. Bütün bunları öyrətmək üçün Salur Qazan onu özü ilə aparıb vuruşduğu, ov ovladığı yerləri göstərmək qərarına gəlir.

Nə etmək olar? Bir halda ki, boyların düzülüşü belə qurulub, biz də bu nizama uyğun olaraq söhbətimizi davam etdirməyə qərar veririk.

Burla xatunu əsir saxlayan Şöklü Məlik onun ərindən – Qazan xandan heyif-qisas almaq meylinə düşür. O, Burla xatunu məclisində sağraq sürdürənə-saqiyə, yəni şərab paylayana çevirmək, döşəyinə salıb eyş qurmaq istəyir. Deyək ki, eyş məsələsi bir yana qalsın, nəinki kafir, hətta Oğuzların öz məclislərində xanımlarının saqilik etmələri rüsvayçılıq kimi etiketə sığmayan mümkünsüz işdir. Oğuzlarda bu vəzifəni yerinə yetirənlər, adətən, kafir qızları olurlar.

Məsələdən xəbər tutan Burla xatun kafirləri azdırmaq üçün çevrəsindəki bəy qızlarına öyüd verərək deyir: «Qanqınıza yapışurlarsa, Qazan xatunı qanqınızdır yeyü, qırq yerdən avaz verəsiz» (5, 49).

Qızlar Burla xatunun öyüdünə əməl edirlər. Bunu görən kafirlər daha nanəcib yol tuturlar. Nəyin bahasına olursa-olsun, Burla xatunu tanıyıb bəd əməllərini reallaşdırmağa səy edirlər. Şöklü Məlik deyir: «Mərə, varın Qazanın oğlu Uruzu dartın, çəngələ asun. Qıyma-qıyma ağ ətindən çəkin, qara qavurma bişürüb, qırq bəg qızına ilətün; hər kim yedi, ol degil, hər kim yemədi, odur. Alun gəlün sağraq sürsün» (5, 49).

Kafirlərin qərarlaşdırdıqları bu namussuzluq hərəkəti Burla xatun üçün kulminasiya nöqtəsinə qalxır. Necə olsun? Oğuz elinin arxaduranı, basılmaz qəhrəmanı, döyüşlərdə öndə gedəni, çıxılmazlara çıxış yolu göstərəni, ağsaqqal məsləhətvəreni olan Salur Qazan kimi bir əri kafir önündə sındırıb rüsvay etməli, yoxsa:

Dünlügi altun ban evimin qəbzəsi oğul,
Qaza bənzər qızımın-gəlinimin çiçəgi oğul,
...Doqquz ay dar qarnımda götürdügüm oğul,
On ay deyəndə dünyaya gətürdügim oğul,
Dolması altun beşikdə bələdügim oğul
(5, 49-50)

– deyib oxşadığı ciyərparasını – oğlu Uruzu kafir qətlindən qorumalı? Dilemmanın həlli asan deyil. Bayaqdan başqalarına öyüd-nəsihət verən Burla xatun indi özü nəsihətə möhtacdır. Odur ki, oğluna üz tutur: «Sənin ətindən, oğul, yiyəyinmi, yoxsa sasi dinlü kafirin döşəginə girəyinmi? Ağan Qazanın namusunu sındırayınmı?»

Uruzun anasına qəddar, qəzəbli cavabı, bəlkə də icrası mümkünsüz olan mərdanə, kişiyanə cavabdır. Oğuz ərlərinin mətanətini, qeyrət, namus uğrunda ölməyə hazır olmalarını nümayiş etdirən cavabdır. Bu gün üçün də örnək ola biləcək həmin cavab belədir: «Ağzın qurusun, ana! Dilin çürüsün ana! Ana haqqı Tanrı haqqı denilməsəydi, qalqubanı yerimdən duraydım, yaqanla boğazından tutaydım, qaba ökcəm altına salaydım, ağ yüzünü qara yerə dəpəydim, ağzun ilə burnundan qan şorladaydım, can datlusın sana göstərəydim! Bu nə sözdür? Saqın, qadın ana! Mənim üzərimə gəlməyəsən, mənim üçün ağlamayasan. Qo bəni, qadın ana, çəngələ ursunlar, qo ətimdən çəksinlər, qara qovurma etsünlər, qırq bəg qızının önünə ilətsinlər. Anlar bir yedigində sən iki yegil! Səni kafirlər bilməsünlərduymasınlar, ta kim, sasi dinlü kafirün döşəginə varmayasan, sağrağın sürməyəsən, atam Qazan namusını sımayasan. Saqın!» (5,50).

Bəli, bu cavab «südüm sənə halal olsun" alqışı müqabilindədir. Ana varlığına qürur, fərəh bəxş edən,başını dik tutmağa çağıran cavabdır. Bununla belə, ürəyi daşdan deyil. Böyüdüb ərsəyə gətirdiyi oğlunu gözü baxa-baxa itirmək asan deyil. Bu üzdən də Burla xatun bıldır-bıldır göz yaşı axıdır, güz alması kimi al yanağını dartıb cırır, qara saçını yolub tökür.

Burada yenə də Uruz görünür. Həm də o,

bir az əvvəlki kimi qəzəbli, qəddar deyil. Həlimdir, anasına təskinlik verəndir. Həm də bu təskinlik KDQ-da xüsusi öyrənmək dəyərində olan simvollarladır:

Qadın ana! Qarşum alub nə bögərsən?
Nə bozlarsan, nə ağlarsan?
Bağumla yürəgim nə dağlarsan?
Keçmiş mənim günimi nə andırarsan?
Hey, Ana! Ərəb atlar olan yerdə
Bir qulun olmazmı olur?
Qızıl dəvələr olan yerdə,
Bir köşəgi olmazmı olur?
Ağca qoyunlar olan yerdə
Bir quzıcığı olmazmı olur?
Sən sağ ol, qadın ana, babam sağ olsun,
Bir mənim kibi oğul bulmazmı olur? (5, 50).

Əlbəttə, KDQ-la tanış olanlar bilirlər ki, kafirlər arzularına çata bilmirlər. Salur Qazan və digər Oğuz bəyləri özlərini yetirib şərəfsiz kafirlər üçün gen dünyanı dar eləyirlər. Onları qılıncdan keçirib tifaqlarını pozurlar.

Sözsüz ki, Burla xatunla bağlı söhbətin məcrası KDQ-un dördüncü boyunda daha genişdir. Burada mifoloji görüşlər də gərəyincədir.

Yuxarıda xatırlatmışdıq ki, Salur Qazan döyüşdüyü, ov ovladığı məkanları göstərmək üçün oğlu Uruzu ova aparır. İş elə gətirir ki, getdikləri yerdə onlar kafirlərlə üzləşib vuruşurlar və qalib gəlirlər. Amma Uruzun əsir düşdüyündən xəbər tutmurlar. Düşünürlər ki, o, evə qayıdıb. Onlar geri dönürlər.

Burla xatun gedənlərin döndüyünü bilincə oğlunun ilk ovudur deyib atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırıb mərasim düzənləməyə hazırlaşır. Amma oğlunu qayıdanlar arasında görməyən ananın qara bağrı qana dönür, qara qıyma gözlərindən qan-yaş axıdıb və elə buradaca soylamalar söyləyir. Bir-birinin ardınca söylənən bu soylamaların sayı altıdır.

Birinci soylama, əsasən, sorğu səciyyəlidir. Burla xatun Salur Qazandan soruşur ki, ova qoşa getdiyiniz halda, nə üçün tək qayıtmısan? Olmaya Uruz şiş qayalardan uçuruma yuvarlanıb? Yoxsa, qamışlıqdan çıxan aslana parçalatmısan? Kafirlər qollarını bağlayıb əsir aparıblarmı oğlumu?

İkinci soylamada Burla xatun bir yandan Uruzu öyür, o biri yandan canında duyduğu əlamətlərdən söz açır və nəhayət həqiqəti söyləməyəcəyi halda, Qazan xanın ünvanına qarğış deyəcəyini bəyan edir. Mənzərənin aydınlığı üçün bəzi mifoloji əlamətləri də içinə aldığı həmin soylamanı bütövlükdə örnək veririk:

Oğul-oğul, ay oğul! Ortacım oğul!
Qarşu yatan qara dağım yüksəgi oğul!
Qarannılıca gözlərim aydını oğul!
Sam yelləri əsmədən, Qazan, qulağım çınlar.
Sarımsaq otu yemədən, Qazan, içim göynər.
Sarı yilan soqmadan ağca tənüm qalqar şişər.
Qurumuşca küksğmdə sğdğm oynar.
Yalnızca oğul görünməz, bağrım yanar.
Yalnız oğul xəbərin, Qazan, degil mana!
Diməz olursan, yana-göynə qarğaram,
Qazan, sana! (5,69).

Soylamadakı bəzi mətləbləri gözdən keçirək. Birinci misradakı «Ortac»dan başlayırıq. Bu sözə misal gətirdiyimiz örnəkdəkindən savayı, abidədə bir kərə də elə Burla xatunun dediyi mənada tuş oluruq. Üçüncü boyda Bayındır xanın önündə, sağında-solunda oturmuş bəy oğlanlarını görən Baybörə bəy ah çəkib hönkür-hönkür ağlayır. Səbəbi soruşulduqda o deyir: «... necə ağlamayayın, necə bozlamayayın? Oğulda ortacım (burada və hər yerdə kursiv – B.A.) yoq, qardaşda qədərim yoq» (5, 54).

KDQ-da «ortac» tərkibli daha iki söz var. Səkkizinci boyda Oğuzlara qənim kəsilmiş təkgözlü Təpəgöz, nəhayət, təkcə gözünü Basatın əli ilə itirir. Tamam-kamal kor olur və bununla da öldürüləcəyini yəqinləşdirir. Ömrünün sonunda bu bədheybət varlıq, heç olmazsa, kim tərəfindən ölüm girdabına salındığını öyrənmək istəyir. Odur ki, Basatdan adını, döyüşlərdə ələm-bayraq götürən-

lərini, vuruşda öndə gedən alplarını xəbər almaqla bərabər, həm də soruşur: «Qalarda - qoparda, yigit, yerin nə yerdir?»

Basat da Təpəgözün digər suallarını cavablandırır və yer-yurdunu belə tanıdır: «Qalarda - qoparda yerim ***günortacı***» (5, 92).

On birinci boyda kafirlər önündə öz soyu, kökü ilə öyünən Salur Qazan onlara bunu da deyir: «Ağ qayanın qaplanının erkəgində bir köküm var//***Ortac qırda*** sizin keyiklərinizi durgüzmaya» (5, 106).

Son iki örnəkdəki «günortac», «ortac qır» («qır», əsasən, çöl, səhra, düz, düzənlik mənasındadır), sözsüz ki, yer, məkan anlamındadır və elə lüğətlərdə də belə qeyd olunub (5, 160).

«Ortac»ın lüğətlərdəki açıqlanması isə belədir: «Atanın yerini tutacaq olan, varis, ortaq, şərik, bərabər, birlikdə, ölənin yerini tutacaq olan» (4, 266; 5, 187).

Zənnimizcə, lüğətlərdə olanlara «arxa», «dayaq» sözlərini də əlavə etmək olar. Elə əslində də, deyəsən belədir. Doğrudan da, Baybörə bəy ona görə ağlayıb sızlayır ki, ortacı – yəni arxası, dayağı, özündən sonra onun əvəzedicisi yoxdur. Elə dördüncü boyda da Salur Qazan oğlu Uruzu fərasətsiz bildiyi üçün onu yox kimi sayır. Arxa, əvəzedici hesab edə bilmir. O, Uruza deyir: «Yarınkı gün zaman dönüb bən ölüb sən qalıcaq tacım-taxtım sana verməyələr» (5, 66).

Elə Burla xatun da «ortacım oğul» deyəndə, şəksiz, onu özünün ümidi, arxası, dayağı olduğunu bildirir.

Amma nədənsə, bu cür aydınlıqlar ortada ola-ola Azərbaycan mifşünaslığında dəyərli xidmətləri olan prof. M. Seyidov məsələyə ayrı şəkildə yanaşmışdır. O, «ortac»ı da, «günortac», «ortac qır» sözləri ilə bir sıraya qoyaraq onların hamısının yer, məkan bildirməsini iddia etmişdir. Hətta işi o yerə gətirib çıxarıb ki, Burla xatunun Baybörə bəyin dediyi ilə mənaca yüzə-yüz eyni olan «ortac»ın «uca», «ucalıq», «dağın yüksəyi – təpəsi» anlamında olmasını təkid etmişdir (6, 406).

Ona təəccüb edirsən ki, M. Seyidov, yuxaridakı soylamanı özü də misal gətirdiyi halda, birinci iki misrasının ikincisindəki «qara dağım yüksəgi» ifadəsinə nə üçün əhəmiyyət verməmişdir? Bunu biz bilirik. Çünki o, birinci misradakı «ortac»a «yüksək» deyə bilməzdi. Düz olmayan fikrinin düzsüzlüyü elə oradaca ortaya çıxardı.

Soylamada Burla xatunun «sam yelləri» əsmədən ... qulağım çınlar» deməsi də baxışı çəkir. Qulağın «çınla»ması, yəni cingildəməsi, fikrimizcə, mif bürüntülü əski inamla bağlıdır. Bu inama görə, indinin özündə də qulaq cingildəyəndə «haradasa, kimsə sözümü danışır» deyirlər. Bu da düşündürücüdür ki, sağ qulağın cingildəməsi xeyirə, sol qulağın cingildəməsi şərə yozulur. Bilavasitə «sağ-sol»la bağlı olan bu məsələdən digər araşdırmamızda (1, 93-96) danışdığımızdan burada həmin söhbətə qayıtmırıq.

Dedik ki, kafirlər Uruzu əsir aparırlar. Onun əl-qolunu bağlayıb kandara yıxırlar. Girən-çıxan onu tapdalayıb keçir. «Qarı düşmən tatar oğlu əlümizə girmişkən cəza ilə öldürəyim!» (5,71) deyirlər. Əzabəziyyətdən, dözülməz işgəncədən, sözsüz ki, Uruzun halı xoş olmur. Belə məqamda yəqin ki, o, ata-anasını xatırlayır, yada salır. Bu xatırlama, yadasalma da öz əksini Burla xatunun qulağının cingiltisində tapır.

Burla xatunun soylamadakı «Sarı yilan soqmadan ağca tənüm qalqar-şişər// Qurumışca köksümdə südüm oynar» sözləri də həm məxsusi mənalı, həm də az-çox mifoloji layhdır. Deyək ki, bu deyimlərin eynini və oxşarını biz birinci boyda Dirsə xanın xanımının da dilindən eşitmişik (5, 42).

Biz ilanlar fəsiləsinə daxil olan əjdahanı hesaba almasaq, «KDQ»da iki ilanın adına tuş oluruq ki, bunlardan da biri sarı, o birisi isə ala rəngli ilandır. Bəs nə üçün Dirsə xanın xanımı da, Burla xatun da ala ilan yox, «sarı yilan soqmadan ağca tənüm qalqar-şişər»

deyirlər? Zənnimizcə, bu, ilanların hansının daha zəhərli olması məsələsi ilə bağlıdır. Bununla ilgili möhtərəm O. Ş. Gökyayın da maraqlı müşahidələri vardır. Əvvəlcə deyək ki, ala ilan çox qorxulu, təhlükəli ilandır. Zəhəri o ölçüdə təsirlidir ki, çaldığı kimsəni ölümdən xilas etmək mümkün olmur. Elə KDQ-da buna işarə vardır.

«Dəli Domrul» boyunda ölümə məhkum olmuş Dəli Domrul halallaşmaq üçün xanımının yanına gəlir. Vəsiyyətində sevəcəyi kimsəyə ərə getməsini də məsləhət görür. Ərinin vəsiyyətinə cavab olaraq xanımı deyir: «Səndən sonra bir yigidi // Sevib varsam, bilə yatsam // Ala yilan olub, məni soqsun» (5, 78).

Düzdür, «İncə bal köpüyü rəngində, qəhvə rənginə yaxın sarı, karlı sarı və qızıla yaxın sarı rəngdə olan» (4, CDLİ) sarı ilan da təhlükəlidir. Amma zəhəri ala ilanınkı kimi təsirli deyil. Olsun ki, bu səbəbdən də xanımlar soylamalarında bu ilanın adını deyirlər.

İndi baxıb görək, «Qurumışca köksümdə südüm oynar» deyimi hansı görüşlərlə bağlıdır. Bu deyim, bildirdik ki, bir qədər fərqli şəkildə Dirsə xanın xanımına da məxsusdur və belədir: «Kəsilsin süd damarım yaman sızlar». Məsələyə bir qədər geniş çevrədən üz tutmağı gərəkli sayırıq.

Hamımız bilirik ki, ana südü həmişə müqəddəs hesab edilib, ona and içilmişdir. Epik folklor örnəklərində divlər, pərilər analarının südünə and içdikdə bağladıqları şərti pozmamış, vədlərinə əməl etmişlər. Elə indinin özündə də kimsənin çətin, gərəkli bir işin öhdəsindən bacarıqla gəlməsi müqabilində ona «anan südü sənə halal olsun» alqışı da deyilir. Bəzən ana fərsizliyinə, yaramaz əməlinə görə övladına «südüm sənə haram olsun», «döşümdən əmdiyin süd burnundan gəlsin» və s. bu şəkildə qarğış da deyir. Bəs bu yön hansı görüşlərlə bağlıdır?

Etiqada görə, insanın anasından əmdiyi süd ömrünün sonunacan onun canında qalır. Nəhayət, o, dünyasını dəyişib dəfn olunan günün gecəsi içində olduğu qəbir onu canındakı südü burnundan gələnə qədər sıxır.

Yenə də elə mifoloji inama görə, nə qədər ağır, dəhşətli, qorxunc deyilsə də, övladına qarşı ananın qarğışı təsirli olmur. Çünki övladın canındakı ananın südü sahibinin söylədiyi qarğışının qarşısını alır.

Sözsüz ki, bu deyilənlərin barəsində danışdığımız məsələyə az-çox dəxli olsa da, «süd damarın sızlaması», «qurumuşca köksdə südün oynaması» mətləbini özündə dəyərincə ehtiva etmir. Bəs onda mətləbin kökündə duran nədir? Sualın cavabı belədir: «südəmər körpəsindən uzaqda olan, yaxud onu yatmış qoyub müəyyən iş arxasınca yollanmış ana uşağının narahatlığını, oyanıb ağlamasını məhz döşlərinin sızıltısından hiss edir. Hətta bu hissiyyatın doğurduğu həyəcandan onun döşlərindən südü sızmağa başlayır. Deməli, Uruzun da, Buğacın da çətinlik içində olmalarını anaları süd damarlarının sızıltısından hiss edir, duyurlar.

Yenə də sual oluna bilər ki, Uruz da, Buğac da artıq ov ovlayan, quş quşlayan, döyüş-vuruşa qabil igiddirlər. Südəmər körpə deyillər ha. Belə olduqda, onların analarının döşlərində südün olmasından necə danışmaq olar? Sual yerindədir. Biz də elə yerindəcə cavab veririk. Buğac ölümcül yaralı olanda Xızır yalavac **(*qədim türk dilində: peyğəmbər*-Red.)** ona deyir ki, dağ çiçəyi ilə anan südü sənin yarana əlacdır. Bunu öyrənən Buğacın anası döşünü üç kərə sıxmaqla süd gəlir (5, 43). Bu, sualın bir cavabı. Bundan savayı, övladının yaşından asılı olmayaraq, onun darlığa, çıxılmazlığa düşməsini ana südü qurumuş döşünün sızıldamasından hiss edir. Bunu Burla xatunun kafir tapdağında qalmış oğlu Uruza görə ***«Qurumuşca köksümdə südüm oynar»*** deməsindən aydın görürük. Bu da sualın ikinci cavabı.

Burla xatunun ardıcıl olaraq söylədiyi soylamaların üçüncüsündə də təkrar qarğışı hesaba almasaq, iki cəhət diqqəti çəkir. Bunlar-

dan biri Uruzun öyülməsi, bu öyümün içində Uruzun nəyə qadirliyinin nəzərə çatdırılması, ikincisi isə ana həsrətidir.

Biz bu soylamanın mahiyyətində də bir uyğunsuzluq görürük. Yuxarıda demişdik ki, Salur Qazanın Uruzdan narazılığı onun ov ovlamağı, silah alıb döyüşməyi bacarmamasıdır. Amma Burla xatunun dediklərində, demək olar ki, bunun tam əksini görürük. Diqqət edək:

Qarğu cida oynadanlar vardı, gəldi;
Altun cida oynadana, ya Rəb, noldı?
Qaraquc ata binənlər vardı, gəldi,
Bədəvi atlu bir oğula, ya Rəb, noldı?
(5, 69).

Düşünürük ki, şərhə ehtiyac yoxdur.

Burla xatunun növbəti soylamasında dedikləri də birinci boyda Dirsə xanın xanımının söylədikləri ilə, azacıq fərqlər hesaba alınmazsa, demək olar ki, üst-üstə düşür (5, 42).

Burla xatunun dedikləri bunlardır:

Quru-quru çaylara su saldım,
Qara donlu dərvişlərə nəzir verdim.
Yanıma, ala baqduğımda qonşuma eyü baqdım.
Utanana - usanana aş yedirdim.
Ac görsəm, doyurdum,
Yalıncıq görsəm, donatdım.
Dilək ilə bir oğulı güclə buldum.

Misal gətirdiyimiz bu nümunədəki birinci misra diqqəti çəkir və dedik ki, Dirsə xanın xanımının da belə bir soylaması var və onun dediklərində həmin misra «Quru-quru çaylara suçu saldım»dır. Məsələ belədir ki, abidənin beşinci boyunda Dəli Domrulun da quru çay üstündə körpü salmasından bəhs edilir (1, 75). Əlbəttə, bu barədə çox danışmaq olar. Amma bu da var ki, məhz həmin məsələdən qorqudşünaslıqda qədərincə söz getdiyindən (7, 37-42; 2, 40-48) təkrar danışmaq niyyətimiz yoxdur. Bircə bunu bildiririk ki, «quru-quru», «quru», «su», «suçu» sözləri suya, çaya aidlikdə «quduz», «coşqun», «qəzəbli», «keçid», «körpü» mənasındadır. Burla xatun da, Dirsə xanın xanımı da, sən demə, uşaqları olsun deyə nəzir, savab olaraq coşqun, qəzəbli, quduz çayların üstündən keçid, körpü salıblar ki, gedən-gələn üçün rahatlıq olsun.

Bura qədər danışdığımız soylamalarda Burla xatunu bir qədər asılı, bir qədər şikayətçi, bir qədər küskün olaraq görürük. Beşinci soylamada isə o, tamamilə yeni ampluada tanınır. Burada Burla xatun tələbkar, hədə-qorxu gələn, hər an döyüşə hazır olan, oğlu Uruzun yolunda hətta ölümdən belə çəkinməyən hünərli, cəsarətl, qorxmaz qəhrəman kimi gözümüz önündə ucalır. İnanmaq üçün onun Salur Qazana üz tutaraq söylədiklərinə qulaq asaq:

Qarşu yatan qara dağdan
Bir oğul uçurdunsa, degil mana,
Külünglə yıqdırayım!
Qamın aqan yügrək sudan
Bir oğul uçurdumsa, degil mana,
Damarların tuğladayım!
Azğun dinlü kafirlərə
Bir oğul tutdurdunsa, degil mana
Xan babamın mən yanına varayın,
Ağır ləşkər, bol xəzinə alayın,
Paralanıb Qazılıq atımdan enməyincə,
Yenümlə alca qanım silməyincə,
Yalnız oğul xəbərin almayınca,
Kafir yollarından dönməyəyin! (5,70).

Bu soylamanın davamında Burla xatunun Qazan xana sualları simvollar üstə köklənib. Həm də oğlu barədə səhih xəbər almazsa, al yanağını dartıb yırtacağını, qara şivən qoparacağını söyləyir.

Nəhayət, sonuncu soylamada Burla xatunun oğlu barədəki istək-arzusu ilə tanış oluruq. Ananın muradı, sən demə, bu imiş ki, Qalın Oğuz elini gəzib-dolaşsın, oğluna ala gözlü bir nişanlı tapsın, qara yer üstündə ağ otaqlar tikdirib gəlin gətirsin. Amma indi o, bu muradına yetməyib və bunların da hamısının günahını ərində görür. Bunun üçün də, hər soylamanın sonunda olduğu kimi, burada da Qazan xana «yana-göynə» qarğış söyləyir.

Yuxarıda qarğış barədə az-çox danışdıq

və bildirdik ki, ananın qarğışı uşaqlarına qarşı bir elə də kəsərli olmur. Çünki övladına əmizdirdiiyi südü bu qarğışı tovdan salır. Salur Qazan isə Burla xatunun əridir. Burada qan doğmalığı yoxdur. Bu üzdən də xanımının «yana-göynə» qarğışından Salur Qazan bərk qorxuya düşür. Onu qarğış söyləməməyə çağırır və Uruzu mütləq tapıb gətirəcəyinə söz verir. Sözünə də əməl edir.

Bir az əvvəl Burla xatunun cəngavər bir xanım olmasını soylamaya arxalanmaqla demişdik. Süjetdəki sonrakı əhvalatlarda bunun doğrudan da belə olmasını görürük. Ərinin tək-tənha Uruzun arxasınca yollanmasından Burla xatun bərk narahat olur. O, silahlanır, qara ayğırına süvar olub, Salur Qazanın getdiyi səmtə yol alır.

Kafir məkanına gəlib o vaxt yetişir ki, Uruzun xilası uğrunda vuruşan Qazan xan yaralanıb, al qan içindədir. Xanımını belə tanımayan kökdədir. Burla xatun geyim-kecimi, silah qurşaması ilə, sözün gerçək anlamında, qüdrətli, qüvvətli cəngavərə bənzəyir. Salur Qazan döyüş meydanına girmiş halalını bir yad igid bilib ondan atını, silahlarını istəyir. Qazan xanın dediklərini eşidək:

Qara ayğırın cilavısını mana dartğıl, yigit!
Təkyə tutub yüzümə baqqıl, yigit!
Altındağı qara ayğırı mana vergil, yigit!
Əlündəki sür cidanı,
Yanındağı gög poladını mana vergil, yigit!
Bu günümdə umud olqıl mana! (5, 73).

Burla xatunun qəhrəmanlığı kafirlərlə vuruşda xüsusi nəzərə çarpır və bu vuruşda artıq Qazan xanla Burla xatun yalqız deyillər. Məsələdən xəbər tutmuş Oğuz bəyləri də axışıb buraya gəlmişlər. Kafirləri qılıncdan keçirirlər. Burla xatunun hünəri daha şücaətli, qələbəni tamamlayan aktdır. Boydan oxuyuruq: «Boyu uzun Burla xatun ***qara tuğın*** kafirin qılıcladı, yerə saldı» (5, 74). Örnəkdəki «qara tuğın» ifadəsini kursivdə verməyimiz səbəbsiz deyil. Sual oluna bilər: Burla xatunun kafirin qara tuğınını (bayrağını) qılınclayıb yerə salması nə böyük işdir ki, kursivlə də verilsin?

Bəli, məsələnin mahiyyəti aydınlaşanda bunun, həqiqətən, böyük iş olduğu sübuta yetir. Belə ki, bayraqla bağlı biz «Kitabi-Dədə Qorqudda rəng simlovikası» adlı kitabımızda yetərincə danışmışıq (2, 30-32). Orada bunu da bildirmişik ki, əski çağlarda hər dövlətin üç bayrağı olmuşdur: ağ, qırmızı, qara rəngli bayraq. Ağ rəngli bayraq qalibiyyət, qırmızı rəngli bayraq döyüşə başlamaq, qara rəngli bayraq isə güc, qüdrət simvolu imiş.

Burla xatun da kafirlərin məhz qara rəngli bayrağını qılınclayıb ayaqlar altına salmaqla onların özlərini güclü, qüdrətli bilmə xəyallarını puça çıxarır.

Beləliklə, Burla xatunla bağlı xatırlatdığımız bəzi səciyyəvi cizgiləri, dediklərindəki az-çox mifoloji əlamətləri hesaba almaqla, o, əsasən, üç cəhətdən daha çox tanınır, yadda qalır: ər namusunu qoruyan mətanətli xanım, qəlbində dərin övlad sevgisi yaşadan ana, döyüş-vuruşda ər alplar qədər qorxmaz, şücaətli cəngavər.

Qaynaqlar

1. Abdulla B. «Kitabi-Dədə Qorqud»un poetikası. – B: Elm, 1999.

2. Abdulla B. Dəli Domrul «Kitabi-Dədə Qorqud»da və Qorqudşünaslıqda. – B: Təhsil, 2002.

3. Abdulla B. «Kitabi-Dədə Qorqud»da rəng simvolikası. – B: Ozan, 2004.

4. Gökyay O.S. «Dedem Korkudun kitabı». – İstanbul: 1973.

5. Kitabi-Dədə Qorqud Ensiklopediyası. – B: YNİ, 2000.

6. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. – B: Yazıçı, 1989.

7. Zahidoğlu V. (Adilov V.) Dəli Domrul boyundakı "quruçay" ifadəsi haqqında // Tədqiqlər – 1; AMEA Nəsimi adına Dilçilik İnstitutu. – B: Elm, 2000.

Aprelin 14-də konservativ «National Review Online» dərgisi «Middle East Quarterly» jurnalının redaktoru Maykl Rubinin məqaləsini dərc edib. Məqalə «Türkiyənin dönüş nöqtəsi: Türkiyədə İslam inqilabı mümkündürmü?» adlanır.



İstanbulda dünyəvi dövlət tərəfdarlarının AKP əleyhinə mitinqi

TÜRKİYƏDƏ İSLAM İNQİLABI MÜMKÜNDÜRMÜ?

Müəllif yazır ki, Amerikada çoxlarının adını belə eşitmədiyi Fətullah Gülən Türkiyədə getdikcə populyarlıq qazanmaqdadır. Bir çox Yaxın Şərq ekspertləri və jurnalistlər Fətullah Gülənin tolerant İslam dünyagörüşünü müsbət qiymətləndirirlər. Məhz bu səbəbdən 2003-cü ildə Texas Universiteti onu Martin Lüter Kinq, Mahatma Qandi və Dalay Lama ilə yanaşı sülh qəhrəmanı elan edib. Bu il Corctaun Universiteti daha belə bir tədbir keçirməyi planlaşdırır. Ötən il isə Britaniyanın Lordlar Palatasının üzvləri Fətullah Gülәni Londonda keçirilən konfransda təntənə ilə qəbul ediblər.

Daha sonra Maykl Rubin Gülən hərəkatının Qərbdə az işıqlandırılan tərəflərinə toxunaraq yazır ki, hazırda bu hərəkatın nəzarətində bir neçə milyard dollarlıq varidat, o cümlədən universitetlər, lobbilər, tələbə birlikləri, radio və televiziya kanalları və «Zaman» qəzeti var. Hətta Türkiyə rəsmilərinin özləri belə etiraf edirlər ki, bu ölkədə Gülən hərəkatı tərəfdarlarının sayı bir milyondan çoxdur. Fətullahçılar isə bu rəqəmin aysberqin görünən tərəfi olduğunu iddia edirlər. Bu gün fətullahçılar Türkiyə polisi və Daxili İşlər Nazirliyinin şöbələrində dominantlıq təşkil edirlər.

Müəllif Türkiyənin «Cümhuriyyət» qəzetinə istinad edib yazır ki, Fətullah Gülәni hələ 1973-cü ildə İzmir Dövlət Təhlükəsizlik Məhkəməsi «dövlət sistemini dağıdaraq dinə əsaslanan dövlət sistemi qurmaqda» ittiham etmişdi. Sonradan əfv olunduğuna görə Gülən həbsxanada yatmasa da, onun hərəkatına dövlət tərəfindən təzyiqlər davam edib.

Belə ki, 1986-cı ildə Türkiyə ordusu hərbi akademiyada Gülənçi dayaq dəstəsini dağıdıb və sonrakı dövrlərdə də Türkiyə ordusu zaman-zaman öz sıralarına yeridildiyini iddia etdiyi fətullahçıları ordu işindən uzaqlaşdırıb.

Türkiyənin «Gündəlik Xəbərlər» dərgisi məhkəmə materiallarına istinad edərək, Fətullah Gülənin 1998-ci ildə söylədiklərindən sitatları çap edib ki, burada da Gülən öz tərəfdarlarını səbrlə dövlətə nəzarəti ələ keçirməyə çağırıb. 1999-cu ildə isə Türkiyənin ATV kanalı Gülənin daha bir çıxışını gizlicə lentə köçürərək efirə verib. Həmin lent yazısında Gülən «müsəlmanların vaxtından əvvəl qalxacaqları təqdirdə dünyanın onların başını əzəcəyini» deyərək öz tərəfdarlarını səbrə hərəkət etməyə və Əlcəzairdəki kimi tələskənliyə yol verməməyə çağırmışdır.

Türkiyə məhkəməsi Gülәni dünyəvi sistemi dağıtmağa cəhddə ittiham edərək ona qiyabi hökm oxusa da, Fətullah Gülən yaşadığı yerdən-ABŞ-dan öz fəaliyyətini davam etdirir. Dövlətin dindən ayrı olmasını ateizmlə eyniləşdirən Gülənə Türkiyənin bir çox dünyəvi siyasi xadimləri hücumlar edərək bildirirlər ki, dinin dövlətə deyil, şəxsi sferaya aid olduğunu iddia etmək Allahı inkar etməyə bərabər tutula bilməz. Gülən terrorçuluqla da ateizmi bir tərəziyə qoyur və həm ateistlərin, həm də qatillərin cəhənnəmdə yanacağını deyir.

Müəllif yazır ki, 2002-ci ildən Fətullah Gülənə olan hüquqi təzyiqlərə "AK Partinin" hakimiyyətə gəlməsi səbəbindən ara verilmişdi. Müəllif qeyd edir ki, Türkiyə qanunlarındakı boşluqlar bu partiyanın seçkilərdə qazandığı 1/3 səsləri parlamentdəki yerlərin 2/3-nə nəzarət etməyə çevirə bilmişdir. Bundan istifadə edən Ərdoğan həm mülki sistemi, həm bank və

maliyyə sistemini, həm də ədliyyəni öz adamları ilə doldurub. Onlar siyasi opponentlərin əmlakına əl qoymuş, müstəqil qəzetləri ələ keçirmiş və televiziya kanallarına, o cümlədən ATV-yə nəzarətə nail olmuşlar. 2006-cı il mayın 5-də isə Ankara Cinayət Məhkəməsi Fətullah Gülənə olan ittihamları rədd etmişdir.

Hazırda Gülən Türkiyəyə tezliklə qayıda biləcəyini söyləyir. Müəllif yazır ki, əgər o bunu etsə, Türkiyə 1979-cu ilin Tehranına dönəcək. Rubin qeyd edir ki, Fətullah Gülənin tolerantlığına diqqət yetirən Qərb jurnalistləri onun gizli dayaq dəstələri olan hərəkatı ilə şəffaf dövlət idarəçiliyi arasında olan aşkar ziddiyyətə fikir vermirlər.

İranın keçmiş dini lideri Xomeynini xatırladan müəllif qeyd edir ki, 1978-1979-cu illərdə Qərbin əksər qələm sahibləri Xomeyninin siyasi hakimiyyətə can atmadığına inanırdılar və hakimiyyətə gələcəyi təqdirdə belə onun daha çox sosial islahatlar aparacağına ümid bəsləyirdilər. Müəllif yazır ki, Fətullah Gülən çox ehtiyatlıdır və o, Türkiyə respublikasını ləğv etməyi əmr etməyəcək. Amma o sadəcə olaraq bir yerdə oturub fitvalar verməkdə davam edə bilər ki, bununla da Ərdoğanın yalnız formal olaraq sayğı göstərdiyi dünyəvi sistemə bir qədər də zərbələr vurar. Müəllif yazır ki, Xomeyni özü ilə İmam Sahib-əz Zaman arasında müəyyən paralellər apardığı kimi, Fətullah Gülən də öz tərəfdarlarının onun gəlişi ilə Türkiyədə Atatürkün ləğv etdiyi xilafətin bərpa olunacağı iddialarını sükutla qarşılayır.

Müəllif yazır ki, Türkiyədə dünyəvi sistem və konstitusiya heç vaxt indiki kimi zəif olmayıb. Hazırda hökumət hər zamanda olduğundan daha çox televiziya və radio kanallarına nəzarət edir. Ərdoğan jurnalist və siyasi şərhçilərə qarşı ondan əvvəlki baş nazirlərin heç birinin etmədiyi sayda məhkəmə iddiaları qaldırmaqla ad çıxarmışdır.

Müəllif mart ayında Türkiyədə baş verən hadisələrə aydınlıq gətirərək yazır ki, ədliyyə sistemində Ərdoğan hökumətindən müstəqilliyini qoruyub saxlaya bilmiş bir qrup AKP-çiyə qarşı konstitusiyanı pozmaq ittihamı ilə məhkəmə iddiası qaldıranda, Ərdoğan hökuməti bir günün içində bir neçə aparıcı alim və jurnalisti həbs edərək öz tərəfdarlarını belə təəccübləndirmişdir. Həbs olunanlar arasında «Cümhuriyyət» qəzetinin 80 yaşlı redaktoru İlhan Səlcuq da var. Fətullah Gülənin qohumu olan Kəmaləddin Gülən isə «Hürriyyət»in müxbiri Ahmet Hakana zəng vuraraq onu təhdid etmişdir.

Məqalənin sonunda müəllif yazır ki, AKP-nin siyasi opponentlərinə qarşı bu təzyiqləri davam etdikcə Qərb Ərdoğana daha çox dəstək verir. Müəllif yazır ki, hazırda AKP-yə qarşı Türkiyə prokurorluğunun qaldırdığı işə ABŞ-ın rəsmi reaksiya verməsi gözlənilir. Güman edilir ki, dövlət katibi Kondoliza Rays Ərdoğan hökumətinə sətiraltı dəstək verəcək. Müəllif yazır ki, prokurorluğun AKP-yə qarşı təqdim etdiyi məhkəmə iddiası zəif hazırlana bilər, amma bu iddiada əks olunmuş problemlər real məsələləri əks etdirir və indiki məqamda ABŞ ən azı sakit duraraq, bu mübarizəyə qarışmamalıdır.

Qorxmaz ƏSGƏROV,

"Azadlıq" radiosu, Vaşinqton

MÜZAKİRƏYƏ DƏVƏT EDİRİK

"Türkiyədə islam inqilabı mümkündürmü?" Bu, ötən əsrin son onilliklərindən etibarən Türkiyə cəmiyyətini düşündürən və narahat edən ən müşkül sualdır və ölkə mediasında mütəmadi müzakirə olunan məsələdir. Nobel mükafatı laureatı Orhan Pamuk hətta 2002-ci ildə nəşr etdirdiyi "Qar" romanını bütünlüklə bu problemin araçdırılmasına həsr etmişdir. Maykl Rubinin məqaləsinin Q. Əsgərov tərəfindən təqdim olunan icmalından göründüyü kimi, bu sual Qərbin də siyasi və hakim dairələrinin diqqət mərkəzindədir. Təbii ki, Türkiyə cəmiyyətindəki hər hansı problem Azərbaycan üçün də yad məsələ deyildir.

Beləliklə də, "Türkiyədə islam inqilabı mümkündürmü?" Tarixçi alimləri, siyasətçiləri, politoloqları bu sual ətrafında müzakirəyə dəvət edirik.


Xəzər Xəbər

США: *ПРАВИТЕЛЬСТВА ШТАТОВ*

В соответствии с принципами федеральной системы, в Соединенных Штатах несколько уровней власти: федеральное правительство, правительства штатов и органы местного самоуправления. Два из них – федеральная власть и правительства на уровне штатов - рассматриваются в Конституции США.

Конституция США наделяет Конгресс полномочия на прием в союз новых штатов. Со времени ратификации Конституции первыми 13 штатами количество штатов увеличилось, и сегодня в США насчитывается 50 штатов, которые существенно отличаются друг от друга по численности населения и размеру территории. В дополнение к 50 штатам, в США есть федеральный округ Колумбия, где находится столица страны Вашингтон, не относящаяся ни к одному из штатов. Округ Колумбия находится под управлением муниципального правительства, а контроль над бюджетом и административный надзор осуществляется Конгрессом США.

Правительства штатов не являются подразделениями федерального правительства: каждый штат является суверенным, в Конституции не предусматривается его подчиненность федеральному правительству. Однако, в случае расхождения между федеральными законами и законами штатов, федеральное право обладает приоритетом по отношению к праву отдельных штатов.


Лос-Анджелес




СТРУКТУРА ПРАВИТЕЛЬСТВ НА УРОВНЕ ШТАТОВ

Конституция США гарантирует каждому штату республиканскую форму государственной власти – то есть правительство во главе с избранными всем населением представителями народа. Как правило, структура правительства штата соответствует федеральному правительству: в каждом штате есть выборный глава исполнительной ветви власти (губернатор), независимая судебная власть и избранная населением законодательная ветвь власти.

ИСПОЛНИТЕЛЬНАЯ ВЛАСТЬ

Исполнительная ветвь власти в каждом штате отвечает за повседневную работу правительства, предоставление услуг населению и правоохранительную дея-


Бостон

тельность. Во главе этой ветви власти стоит губернатор, избираемый всеобщим голосованием населения штата на двух- или четырехлетний (в зависимости от штата) срок. Другие высшие должностные лица исполнительной власти, которые могут не назначаться, а избираться, включают вице-губернатора, госсекретаря штата, главного прокурора, главного аудитора, а также членов различных коллегий и комиссий. Если назначение на должность не требует проведения выборов, то назначения обычно производятся губернатором.

ЗАКОНОДАТЕЛЬНАЯ ВЛАСТЬ


Во всех штатах имеются избранные населением двухпалатные законодательные собрания, за исключением штата Небраска, где действует однопалатное законодательное собрание. Члены законодательных собраний избираются от одномандатных округов, как правило, на два или четыре года. В разных штатах этот орган власти называется по-разному. В большинстве штатов верхняя палата называется сенатом, а нижняя палата может называться палатой представителей, палатой делегатов, или же ассамблеей штата.

Главные обязанности законодательной власти включают принятие новых законов, принятие бюджета штата, утверждение назначений в исполнительной и судебной ветвях власти, а также осуществление контроля над деятельностью исполнительной власти. Во многих небольших штатах члены законодательного собрания служат по совместительству и получают лишь символическое вознаграждение.

Сессии подобных законодательных органов обычно длятся лишь несколько недель или месяцев, после чего депутаты возвращаются к своей основной работе. Члены законодательных собраний в более крупных штатах служат круглый год и получают денежное вознаграждение и социальные льготы, соответствующие статусу постоянной работы.

СУДЕБНАЯ ВЛАСТЬ

Судебные системы штатов обладают юрисдикцией в вопросах, которые не подлежат рассмотрению в федеральных


Сан-Франциско

судах, включая большинство гражданских дел между сторонами в пределах одного и того же штата, уголовные дела о нарушении законов штата или местного законодательства, дела из раздела семейного права, а также вопросы, относящиеся к конституции штата.


Высшей судебной инстанцией в каждом штате является верховный или апелляционный суд штата. Судьи такого высшего суда обычно избираются на длительные, но не пожизненные, сроки. Высший суд штата обычно обладает лишь апелляционной юрисдикцией – рассмотрение правильности решений, принятых нижестоящими судами. Его решения, в свою очередь, могут быть обжалованы в Верховном суде США. Структура судов низшей инстанции сильно варьируется от штата к штату. В некоторых штатах гражданские и уголовные дела рассматриваются в отдельных судах, и во всех штатах в той или иной форме есть местные муниципальные суды или суды округа для рассмотрения мелких правонарушений и исков.


ПОЛНОМОЧИЯ И ОТВЕТСТВЕННОСТЬ ПРАВИТЕЛЬСТВ ШТАТОВ

Как у суверенного субъекта в рамках федеральной системы США, у каждого штата есть своя конституция, выборные должностные лица и система органов власти. Штаты обладают полномочиями принимать законы и обеспечивать их соблюдение, взимать налоги, а также вести свои дела в основном без вмешательства со стороны федерального правительства или других штатов.

На правительства штатов возложена главная ответственность за обеспечение многих важных услуг и функций, которые влияют на повседневную жизнь жителей этих штатов. Эти услуги и функции включают следующее: определение стандартов в области образования и методов финансирования народного образования; строительство и поддержание транспортной инфраструктуры; учреждение субсидируемых штатом колледжей и университетов; выдача лицензий бизнесам и специа-


Нью-Йорк


Флорида


Джорджия

листам и регламентирование их деятельности; создание судов и системы уголовного правосудия, не относящихся к федеральному уровню, а также надзор за ними; обеспечение общественной безопасности; выдача свидетельств о браке и водительских прав; выдача свидетельств о рождении и смерти и регистрация рождений и смертей; осуществление руководства финансируемыми штатом программами в области здравоохранения и обеспечения жителей с низкими доходами или инвалидов жильем и питанием; управление заповедниками штата и другими угодьями, имеющими статус охраняемых территорий и предназначенными для отдыха и досуга населения; руководство проведением выборов и утверждение их результатов, включая выборы федеральных должностных лиц; командование Национальной гвардией штата, кроме тех периодов, когда ее подразделения призываются на общенациональную службу. Во многих штатах некоторые из указанных обязанностей полностью или частично передаются местным правительствам. Например, в большинстве штатов свидетельства о браке выдаются правительствами городов или округов.

РОЛЬ КОНСТИТУЦИЙ ШТАТОВ

В отличие от Конституции США, в которой используются достаточно общие формулировки, конституции штатов могут быть очень подробными и конкретными. Например, в конституциях многих штатов содержится подробное описание правил выпуска облигаций или определение юрисдикции различных судов штата. Почему же в конституциях штатов так много подробностей? Одна из причин заключается в том, что в эти конституции легче вносить поправки и изменения, чем в Конституцию США. Во многих штатах для


Атланта

этого достаточно одобрения большинством голосов на всеобщих выборах в штате.

Другая причина – это то, что правительства штатов, в отличие от федерального правительства, часто могут использовать прочие полномочия, осуществлять которые им не возбраняется. Чтобы действительно ограничить правомочия правительства штата, ограничения должны быть четко изложены в конституции этого штата.

Наконец, во многих штатах, согласно их конституциям, должен быть сбалансированный бюджет. Исключения – такие, например, как заем для финансирования транспортных или иных строительных проектов, – должны быть оговорены в конституции штата.

Распространено Бюро международных информационных программ Государственного департамента США. Веб-сайт: http://usinfo.state.gov/russki/.


Сан-Мисс

Pərviz Zare ŞAHMERSI

QACAR DÖVRÜNÜN SİYASƏTİ VƏ HÖKUMƏTİNDƏ QARABAĞLILARIN ROLU

Qacar sülaləsi etnik baxımdan qarabağlıdır. Belə ki, Qacar padşahları və dövlət işçilərinin Qarabağ və qarabağlılara olan sevgi və istəkləri bunu bir daha sübut edir. Qacarlar Zülqədr tayfa birliyindən olan bir qəbilədir. Ağqoyunlular hakimiyyəti dövründə Şam şəhərindən Azərbaycana gəlmişdilər. Onlar 1491-ci ildə Bərdə və Gəncə şəhərlərinndə idilər, sonralar tədricən "Iyirmi dörd "və "Otuz iki" tayfaları da onlara birləşərək, Qarabağda məskunlaşdılar.[1]

Qacarlar Səfəvilər dövlətinin təşkilində də böyük rol oynadılar.[2] Onlar, Əfşarlar və Zəndiyələr vaxtında hakimiyyətə çatmaq üçün göstərdikləri səylər nəticəsində hakimiyyətə yaxınlaşa bilmişdilər. Qacarların hakimiyyəti dövründə İran və Rusiya arasında baş verən iki müharibə Qafqazın İrandan ayrılıb Rusiyaya birləşməsinə səbəb oldu.

Qacarların hakimiyyəti və Rusiya ilə İran arasında gedən müharibələr dövründə qarabağlıların çoxu İrana köçdülər və onların arasında yüksək məqama çatanları da oldu. Həmin qəbilələrdən biri Cavanşir qəbiləsidir. Cavanşirlər "Otuz iki" qəbiləsinin ən böyük qollarından biridir və Teymurləngin hakimiyyəti dövründə Qarabağda yerləşdikləri ehtimal olunur.[3] Səfəvilər dövründə adətən Cavanşir və Otuz iki qəbiləsi üçün bir hakim təyin edilirdi. Şah Səfi 1632-ci (1042 h.q.) ildə əvvəllər Cavanşir hakimi seçilmiş Xosrov Soltanı Əmiri-şekarçi (ovçuların əmiri) və Süleyman Soltanı onun canişini təyin etmişdir. Şah Səfi 1639-cu (1049 h.q.) ildə Cavanşir və "Otuz iki" qəbiləsinin başçısı Novruz Soltanın qətl fərmanını verdi və "İyirmi dörd" tayfasından olan Bərdə hakimi İbrahim xan Qacarı Osmanlıya səfir göndərdi. 1648-ci (1058 h.q.) idə isə Budaq Soltan Cavanşir hakimi seçildi.[4]

Şah Abbas Səfəvinin vaxtında Ağaxan Müqəddəm Cavanşir Marağanı iqta olaraq ələ keçirdi. O, Baqdad, Qəndəhar döyüşü kimi bir çox müharibələrdə qəhrəmanlıqlar göstərmiş və sonralar Marağanın Müqəddəm qəbiləsinə başçılıq etmişdi.[5] Öləndən sonra oğlu Qazi Soltan (Ağaxan Sani) onun canişini oldu.

Yenə qarabağlılardan olan Əlixan Müqəddəm Nadir şahla Hindistana getdi. Qacar hakimiyyətinin başlanğıcında Əhməd xan Müqəddəm Cavanşir Ağa Məhəmməd xanın qəhrəman sərdarlarından idi. O, Ağaməhəmməd xanın cənazəsi Qarabağdan Tehrana aparıldığı vaxt Marağa yolunda mərasimə qatıldı. Əhməd xan 1799 ya 1800-cü (1214 ya 1215 h.q.) illərdə Fətəli şah Qacarın fərmanı ilə öz qızını Qəzvinin hakimi Məhəmmədəli Mirzəyə verdi. Əhməd xan Marağa bəylərbəyi və ordu başçısı kimi İran-rus müharibəsində Abbas Mirzənin ordusunda bir çox qəhrəmanlıqlar göstərdi və döyüş meydanında həlak oldu. Onun oğulları olan general

Cəfərqulu xan və polkovnik Hüseynpaşa xan da Abbas Mirzə ordusunun ən qəhrəman zabitlərindən idilər. Hüseynpaşa xan Marağa ordusunun tərkibində Herat mühasirəsində iştirak edirdi və o, Herata girən ilk komandir oldu. Gəncə döyüşündə Hüseynpaşa xan öldürüldü, Cəfərqulu xan isə yaralandı. Əhməd xanın oğlu Hüseyn xan Müqəddəm Cavanşir hələ gənc yaşlarından hərbi xidmətdə idi və Zəngəne hərbi komandiri Məhəmməd xanın icazəsi ilə Marağa ordusunun başçısı ikən bütün Azərbaycanın baş adyutantı vəzifəsi kimi yüksək məqama çatdı. Daha sonra isə bütün İranın baş adyutantı seçildi. 1838-ci (1254 h.q.) ildə Avstriya, Fransa və İngiltərədə səlahiyyətli və fövqəladə səfir idi. Avropadan qayıtdıqdan sonra Yəzd hakimi oldu.1844-cü ilin (1260 h. q.) mart ayında Fars hökmranlığı da ona verildi. Onun vaxtında Fars və Yəzd hökümətləri birləşdirildi, Şiraz şəhərində iqamətgah qurdu. Bir müddət sonra Tehrana göndərildi, göstərdiyi xidmətlərə görə Nizamuddövlə ləqəbinə layiq görüldükdən sonra Şiraza qayıtdı. Mirzə Həbib Qaani Şirazi onun şərəfinə 29 qəsidə və 1 qitə yazmisdir.

İskəndər xan Muqəddəm Cavanşir Göklan səhrasında türkmənlərlə döyüşdə öldürüldü və Estrabadda dəfn edildi. Hüseynpaşa xanın övladı və Zəfərli təxəllüsü ilə şeir yazan sərdar Fətulla Müqəddəm Zəfərüddövləni və İskəndər xanın (1865-1943=1244 -1322 h.ş.) oğlunu da vəzifəyə qoymuşdular. Fətulla xan Marağanın 3-cü ordusunun başçısı idi. Əmir Kəbirin qatili Hacıəli xan Müqəddəm də Hacibüddövlə, Etimadüssəltənə və Ziyaülmülk ləqəbləri almış və İranın ədliyyə naziri vəzifəsində çalışmışdır. Onun böyük oğlu Əbdüləli xan Ədibulmülk Qumun hakimi olmuşdur. 1864-cü (1281 h.q.) ildə Hacıəli xan ədlyyə naziri, oğlu Əbdüləli xan da onun müavini təyin edildi. Əbdüləli xan Məhəmmədbağır xan Etimadüssəltənə və Təğı xan Ehtisabulmülkün atasıdır. Məhəmmədhəsən xan Etimadüssəltənə (1843-1895 =1259-1313 h.q.) Hacıəli xanın dördümcü oğlu "Miraatul-buldan", "Muntəzəmi Nasiri", "Xəlse ya xabname ya əsrare intibahe İran", "Dürərüt-tiyan fi tarixi bəni Əşkan" və s. kitabların müəllifidir. Bu ailənin övladları sonralar Müqəddəm və Müqəddəm Marağayi soyadı götürmüşdülər. 1979-cu (1358 h.ş.) ildə Şərqi Azərbaycan vilayətinin ostandarı (icra başçısı) Rəhmətullah Müqəddəm Marağayi və SAVAK-ın son başçısı timsar (*generallara hörmət məqsədilə verilən titul)* Müqəddəm bu ailədəndirlər. Bundan başqa, Zəncanda yaşayan Müqəddəm ailələri də bu tayfaya mənsubdurlar.

Qacarların vaxtında Cavanşir qəbiləsindən olan başqa şəxslər də İranda vəzifə sahibləri olmuşdurlar. Fətəli şah Qacar dövründə Kazım xan Cavanşir Dizmar və Xalxal mahallarının hakimi idi. O, 1827-ci il noyabr (1243 h.q., cəmadiül-əvvəl) ayında Hacı ləqəbi aldı, Alicah ləqəbi isə ona Abbas Mirzə tərəfindən verilmişdi. 1828-ci il aprel (1244 h.q., şəvval) ayında da Abbas Mirzənin fərmanı ilə Cəladət və Vəfa ordenlərinə layiq görüldü və fərmanlarda onun ləqəbi belə idi: Alicah rəfi cayigah və necdət həmrahe ixlas və sədaqət pənah".

O, 1829-cu il fevral (1245 h.q., şaban) ayında Məhəmməd şah Qacarın əmri ilə vəzifəyə qoyuldu və İran döv-

ləti tərərfindən Rusiya ilə müqaviləyə əsasən Araz çayının ətrafında yaşayan əhalinin işlərinə baxırdı. 1837-ci il iyun (1252 h.q., rəbiüləvvəl) ayında Qəhrəman Mirzənin (Abbas Mirzənin oğlu) fərmanı ilə Azərbaycanın hakimi seçildi. Meşkin şəhərinin Pərixan qəryəsinin tyulu da Hüseynəli xan Cavanşirə verildi.[6] Hüseynpaşa xan Cavanşir Əmir Bahadurvənd (Bahadur ailəsinin ulu babası) Müzəffərəddin şah Qacar sarayının vəziri idi. O, Müzəffərəddin şahın Azərbaycanda vəliəhdlik etdiyi vaxt onun xadimlərindən biri idi. Sonralar tədricən irəliləyərək bütün Azərbaycanın baş adyudantı vəzifəsinə qoyuldu. Nəsirəddin şahın ölümündən sonra Tehrana gəldi və Həkimülmülkdən sonra vəzir oldu. O, bir şahnamə yazdı və həmin əsər Əmir Bahadur şahnaməsi (şahnameyi - Əmir Bahadur) adı ilə tanınır.

Qarabağlı Cavanşirlərin başqa bir qrupu isə Qarabağ xanları ailəsinə mənsubdurlar. Fətəli şah Qarabağ hakimini İrana yaxınlaşdırmaq məqsədi güddüyünə görə onun qizi Ağabəyim Cavanşirə elçi göndərdi. Qarabağ xanı razılıq verərək qızını bahalı cehizlərlə şahın hərəminə yolladı. Bundan başqa, oğlu Əbülfət bəyi girov kimi Tehrana yolladı. Ağabəyim Cavanşir Tehrana göndərildikdən sonra xarici ölkə səfirləri və dövlət məmurları tərəfindən diqqət mərkəzində idi. O, Fətəli şahın on ikinci arvadı idi. Ondan qabaq Fətəli şahın dörd kəbinli arvadı var idi. Ağabəyim əvvəl siğə (müvəqqəti nikahli), Məhəmməd xan Qacarın qızı Asiya bəyim Mazandaranda vəfat etdikdən sonra isə şahın daimi nikahlısı oldu. Lakin onların aralarında müzavicət olmadığına görə şahın məsləhəti ilə Qum şəhərinə getdi və tənhalığa qapanaraq ədəbi fəaliyyətə başladı, nəhayət 1894-cü (1312-ci h.q.) ildə vəfat etdi. O, türk və fars dillərində şeir yazırdı.[7] Ağabəyim Tehrana gələrkən özü ilə Qarabağdan 200 nəfərdən çox adam gətirmişdi və onların hər biri tanınmış şəxsiyyət idi. Onlardan biri Ağa Bəhram Xacə Qarabağı idi. Ağa Bəhram Fətəli şah zamanı tanınmış xacələrdən oldu. Fətəli şah 1834-cü (1250 h.q.) ildə İsfahanın Həftdəşt adlı imarətində onun qucağında can verdi. Ağa Bəhram Məhəmməd şahın hakimiyyəti illərində də çox önəmli şəxslərdən biri kimi Əmir-divan ləqəbi almış, Nəsirəddin şahın zamanında isə İranın ədliyyə naziri olmuşdu. Belə ki, o, İranın ilk ədliyyə naziridir. Ağa Bəhram 1849-cu (1266 h.q.) ildə Azərbaycanda Əmir Kəbirə qarşı baş verən hərəkatın fəal iştirakçılarından idi. Əmir Kəbir araşdırma aparıb, baş verən hadisələrdən xəbərdar olduqdan sonra onun Kermanşaha sürgün edilməsi haqda fərman verdi. Tehrandakı sarayda girov kimi saxlanılan İbrahimxəlil xanın oğlu Əbülfət bəy Cavanşir Tuti təxəllüsü ilə fars və türk dillərində şeir yazırdı. O, 1839-cu (1255h.q.) ildə vəfat etdi.[8] Əbülfət bəy Cavanşirin oğlu Abbasqulu xan Cavanşir (Vali-mötəmidüddövlə) 1836-cü (1251h.q.) ildən etibarən bir il müddətində Kaşanın hakimi oldu. O, 1841-ci (1257 h.q.) ildən 1843-cü (1259h.q.) ilədək Fəzləli xan Qarabağinin yerinə Kermanın hakimi oldu. 1843-cü (1259h.q.) ildə Abbasqulu xan Kerman hakimiyyətindən kənarlaşdırıldı və bəylərbəyi ləqəbi ilə tanınan Fəzləli bəy Qarabağı onun canışını oldu. Məhəmməd şahın vəfatından sonra Nəsirəddəin şahın Təbrizdən Tehrana gəldiyi 45 gün ərzin-

də bütün səlahiyyətlər Məhəmməd şahın arvadı Məhdəlyanın öhdəsində idi. Dövlətin xüsusi mallarının əldən getməməsi və ölkənin taxıl qıtlığı ilə üzləşməməsi üçün daxili işlərin idarəsi Abasqulu xanın öhdəsinə qoyuldu. O, 1849-cu (1265 h.q. ildə) Ərdəbil və Meşkinin hakimi oldu və 1850-ci (1266 h.q.) ilə qədər orada qaldı. 1859-cu (1275 h. q.) ildə Nəsirəddin şahın altı nəfərlik nazirlər heyətində Mötəmidüddövlə ləqəbi ilə ədliyə naziri oldu[9] və 1862-ci (1278 h.q.) ilə qədər bu vəzifədə qaldı. O, 1840 (1256 h.q.) ildə öz vəzifəsi ilə yanaşı Nəsirəddin şahın təşkil etdiyi dövlət şurasına da üzv oldu. Ölümündən sonra onun vəzifə və ləqəbi qardaşı Məhəmməd Bəhram xan Cavanşirə verildi. Divan Əmiri ya Divanxana Vəziri Məhəmməd Bəhram xan çox çəkmədən bu vəzifədən kənarlaşdırıldı. Nəsirəddin şah onu Mötəmidül-məliki ləqəbi ilə Ədliyə Divanxanasının nizamlama işlərinə nəzarətçi vəzifəsinə qoydu. Həmin tarixdən etibarən Divan Əmiri (Əmire- divan) vəzifəsi onun işi, Mötəmidul-məliki onun ləqəbi olaraq qaldı.

Fəzləli xan Qarabağı (Əmire- tümən) də Məhəmməd şahın taxta oturması uğrunda bir çox qəhrəmanlıqlar göstərmiş və 1836-ci (1251 h.q.) ildə Mazandaranın hakimi olmuşdur. Bir il sonra Sari xalqının qiyamına görə o, Mazandaran hakimliyindən uzaqlaşdırıldı. Fəzləli xan 1837-ci (1253 h. q.) ildə İsfahanın, 1839-cu (1255 h.q.) ildə isə Kermanın hakimi olmuş və Ağaxan Məhəllatinin hərəkatında onu qorumaq üçün çox çalışmışdır. Onun qardaşı İsfəndiyar xan Qarabağı də müharibədə öldürülmüşdür. Fəzləli xan 1841-ci (1257 h.q.) ildə Tehrana göndərildi. Nəsirəddin şahın hökümətinin ilk illərində Molla Məhəmmədəlinin rəhbərliyi ilə Babiyyə (Babilik) hərəkatı baş verən zaman mərkəzi hökümət hərəkatı yatırtmaq üçün Zəncana qüvvələr göndərdi. Fəzləli xan Qarabağinin qardaşı oğlu Qasım xan Qarabağı də İranın bu döyüşdə iştirak edən sərdarlarından idi.[10]

Fəzləli xanın Əlixan adlı bir nəvəsi var idi. Əlixanın anası, Hacı Məhəmmədkərim xan Qacarın qardaşı qızı Tabəndə xanım Şeyxiyyə firqəsinin davamçılarından idi. Əli xan Müzəffərəddin şahın səltənətinin son illərində Ərşədüddövlə ləqəbi aldı. O, Məşrutiyyət tərəfdarlarını məhkum edən qrupun üzvlərindən idi. Məhəmmədəli şah ona istibdad tərəfdarı olduğuna görə Sərdari-ərşəd (böyük sərdar) ləqəbi verdi. O, Eynuddövlə ilə birlikdə Səttarxan və Bağırxanın başçılığı ilə baş vermiş qiyamı yatırtmaq üçün Təbrizə göndərildi, lakin bir iş görə bilmədi. Tehranın fəthindən sonra Məhəmmədəli şahla birlikdə Rusiyaya getdi. Vəzifəsindən kənarlaşdırılmış Məhəmmədəli şah öz səltənətini geri qaytarmaq üçün İrana hücum edərkən böyük sərdar da onunla idi. Nəticədə sərdar yaralanaraq əsir düşdü və 6 sentyabr 1911-ci (12 Ramazan 1329 h.q.) ildə güllələndi.

Fətəli şahın Ağabəyim Cavanşirə göstərdiyi sayğı onun bacısı qızı, Hüseynqulu xan Dünbilinin qızı Mahçabəyim ağanı öz oğlu Məhəmməd Təqi Mirzə Hisamussəltənə üçün almağa səbəb oldu. Əmir Teymur Mirzə də bu evliliyin hasili idi. Xatırlatmalıyıq ki, Xoyun qüdrətli hakimi Əlimədxan Dünbili İbrahim Xəlil xan Cavanşirə yaxın olduğu üçün onun qızını oğlu Hüseynqulu xan Dünbili üçün aldı və Məhəmmədsadiq xan

Dünbili bu qadından doğuldu. Məhəmmədsadiq xan 1798-ci (1212 h.q.) ildə iki il müddətində Xoy hakimi idi, sonra Tehrana göndərildi və Fətəli şahın sarayında xidmət etdi. O, tanınmış şəxsiyyətlərdən idi. Məhəmməd Hüseyn xan Mərvinin ölümündən sonra 1819-cu (1234 h.q.) ildə Salam mərasimində padşahın müxatibi idi. O, 1869-cu (1286 h.q.) ildə vəfat etdi.[11] Əhməd xan Dünbili və oğlu Hüseynqulu xanın Xoyda hakimiyyətləri zamanı Cavanşirlərin çoxu Xoya köçdülər. 18 sentyabr 1893-cü (7 rəbiül-əvvəl 1310 h.q.) ildə də Əbülfəth bəyin oğlu Əmiri-tümən Hisamüddövlə Məhəmmədqulu xan Cavanşir Xoy hakimi oldu. O, əvvəllər 1885-ci (1303 h.q.) ildə Marağa və 1888-ci (1306 h.q.) ildə Urmiya hakimi olmuşdur. Hisamuddövlə bir il dörd ay Xoy hakimi oldu və 1894-ci ilin aprel (1311 h.q.; Şəvval) ayında Urmiyaya getdi. Cavanşir tayfasi Xoyda da məskunlaşmışdır. 1928-ci il yanvar ayının axırlarında (1346-cı h.q. ili Şaban ayının əvvəllərində) Xoy hakimi Əmir Əmcəd istefa verdi. Xoyun böyükləri Hüseynəli xan Mirpənceni onun yerinə seçdilər. Xoy böyüklərinin bu haqda imzaladıqları sənəddə İsmail xan Cavanşirin də adı gözə dəyir.[12]

Çox önəmli məqamlara çatmış Qarabağlı tayfalardan biri də Ziyad oğlu Qacar nəsli idi. Hələ Şah Təhmasib Səfəvi zamanından bu nəsildən olan tanınmış şəxsiyyətlər Qarabağda bəylərbəylik vəzifəsində bir çox işlər görmüş, ələlxüsus İran-Osmanlı müharibələrində iştirak etmişdilər. Onlar Cavanşirlərin köməyi ilə Qarabağ xanlığını yaradandan sonra Gəncə hakimi olduıar. Bu nəsildən Gəncədə hakimlik etmiş axırıncı şəxs Cavad xan Ziyad oğlu Qacar idi. O, 1804-cü il yanvar ayının 3-də general Sisyanovla döyüşdə həlak oldu və Gəncə Rusiyanın əlinə keçdi.[13] Cavad xanın nəvəsi Əbülfət xanın Adil xan və İsmail xan adli oğulları öz soyadlarını Ziyadxanov qoymuşdular. Onların anası Məhəmmədşah Qacarın qardaşı Bəhmən Mirzə Qacarın qızı Azər Humayun idi.[14]

İsmail xan Ziyadxanov Qafqaz müsəlmanları tərəfindən Rusiya Məclisinin nümayəndəsi seçildi. O, Azərbaycan Respublikasının 1918-ci ildəki müstəqilliyindən sonra 1919-cu ilin aprel ayında Azərbaycan Respublikasının siyasi nümayəndəsi kimi Tehrana getdi. 1919-cu ilin iyunundan qardaşı Adil xan Azərbaycan Respublikasının İranda səlahiyyətli nümayəndəsi oldu. Adil xan Bakıda ana tərəfindən Bəhmən Mirzə Qacar ilə qohumluğu olan Abasqulu ağa Bakıxanovun (Gülüstani-İrəm əsərinin müəllifi) oğlu general Həsən ağa Bakıxanovun qızı Reyhanə xanımla evləndi. İsmail xan 1920-ci ildə Tiflisdə bolşeviklər tərəfindən güllələndi. Adil xan isə Azərbaycan Respublikasının süqutundan sonra İranda qaldı və dövlət işi ilə məşğul oldu.[15]

Rus-İran müharibələri başa çatandan sonra Ziyad oğullarından bir neçə nəfəri Xoy şəhərinə köçdülər. Deyilənlərə görə, diviziya generalı Məhəmməd Sadiq Qupal onların nümayəndələrindəndir. Bundan başqa, Qarabağ elindən olan bir qrup tayfa İranın Qaradağ mahalına köçmüş və orada məskunlaşmışdır. Hazırda Hacıəli elindən olan gəncəli tayfası Araz çayının kənarındakı Gərmarud mahalında yaşayır.[16]

Pesyan adlı tayfalar da Qa-